18 oktyabr - Müstəqillik Günüdür

MƏNİM AZADLIĞIM

Səh.4

5 oktyabr - Beynəlxalq Müəllimlər Günüdür

Dediklərin doğru imiş sətir-sətir...

Səh.4

15 oktyabr- Beynəlxalq Tələbə Günü

Beynəlxalq Tələbə Günü keçirilib

Səh.3

Özünü fəth etməyi bacar!

Bakı Universiteti

1929-cu ildən çıxır
Təsisçi: Bakı Dövlət Universiteti

№ 07 (1402) 25 oktyabr 2010-cu il

POÇT QUTUSU

SƏH. 2

VƏTƏN DAŞI OLMAYANDAN OLMAZ ÖLKƏ VƏTƏNDAŞI

Milli qəhrəman Mübariz İbrahimova həsr olunmuş tədbir keçirildi

Azərbaycan silahlı qüvvələrinin hərbi qulluqçusu Mübariz Ağakərim oğlu İbrahimov 19 iyun 2010-cu il tarixində Ermənistan ordusunun çoxlu sayda əsgər və zabitini məhv edərək qəhrəmancasına həlak olmuşdur. Ölkə başçısının sərəncamı ilə o, "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

SƏH. 3

Azərbaycan aliminin xidmətləri beynəlxalq aləmdə qeyd edilib

SƏH. 3

Peşəkar mütəxəssislər "3"-"4" qiymət alan tələbələrin arasından çıxır

SƏH. 8

NƏŞRLƏR

SƏH. 9

Azərbaycan qəhrəmanlıq salnaməsinin parlaq simaları silsiləsindən:

LAÇINLI SULTAN BƏY

Xalqının qüdrəti üçün çalışan, onu mühafizə edən, milli-mənəvi dəyərlərin qorunmasında danılmaz əməyi olan hər bir şəxs qəhrəmanlıq zirvəsinə ucalmağa layiqdir. Tarixən bu zirvəni fəth edən böyük şəxsiyyətlər olub. Belə şəxsiyyətlərdən biri də Sultan bəydir.

SƏH. 10

"Ölümdən güclü"

XX əsrin dahi rus yazıçılarından biri olan İ.A.Kuprinin bu günlərdə oxuduğum "Ölümdən güclü" adlı əsəri ilə bağlı təəssüratlarımı paylaşmaq istərdim. Bu dörd vərəqdən ibarət kiçik əsərdə o qədər böyük, o qədər həyati məsələlərə toxunulub ki, əsəri oxuyarkən göz yaşlarımı saxlaya bilmədim. Əsərin hər kəlməsində həyat həqiqətlərini görmək olar.

SƏH. 6

Ömrü uzadan 7 qida

Alimlərin araşdırmalarına görə, insanın hər hansı bir xəstəliyə yoluxması onun qidalanmasından asılıdır.

SƏH. 11

MDB-nin humanitar universitetləri rektorlarının və humanitar fakültə dekanlarının forumu keçirilib

Oktyabrın 12-də Bakı Dövlət Universitetində MDB humanitar universitetləri rektorlarının və humanitar fakültə dekanlarının forumu öz işinə başlayıb.

SƏH. 2

MƏNALI ÖMÜR



Sağlığında özünə hörmət qazananlar ölümündən sonra rəhmət qazanarlar. Əbədiyyətə qovuşduqdan sonra belə, yaxşılar yaxşı, pislər isə pis əməlləri ilə yada düşürlər.
Ömrünün mənasını müəllimlikdə görüb, həyatının sonuna kimi bu sənətin ecazkar aləmində Fərhad kimi külüng çalan Adil Mahmudov həmkarlarının qəlbində bu gün də zəhmətkeş alim, işıqlı insan kimi yaşayır.

SƏH. 5

MƏŞHUR TELEJURNALİST RAFİQ HƏŞİMOVUN TƏLƏBƏ JURNALİSTLƏRLƏ GÖRÜŞÜ

SƏH. 3

NİTQ MƏDƏNİYYƏTİ

İLHAMƏ HACIYEVA
Filologiya elmləri doktoru

Doğma ana dilinin incəliklərinə dərindən bələd olmadan ikinci dilə effektiv yanaşmaq mümkün deyil

Dilçilik sahəsində "Nitq mədəniyyəti" fənni qabarıqlığı ilə seçilir. Belə ki, çağdaş dövrdə dilimizlə bağlı nəzəri problemlər üzrə ciddi tədqiqat işləri aparılır, təcrübi məsələlərə geniş yer verilir. Bu, zamanın, dövrün tələbidir. İnkişaf edən cəmiyyətdə dillə bağlı problemlər diqqətdən kənarda qala bilməz.

SƏH. 6

MDB-nin humanitar universitetləri rektorlarının və humanitar fakültə dekanlarının forumu keçirilib

Oktyabrın 12-də Bakı Dövlət Universitetində MDB humanitar universitetləri rektorlarının və humanitar fakültə dekanlarının forumu öz işinə başlayıb.

Forum iştirakçıları əvvəlcə Fəxri xiyabana gələrək Azərbaycan xalqının ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyublar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə gül dəstələri düzülüb.

Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi uğrunda şəhid olmuş qəhrəman Vətən övladlarının uyuduqları Şəhidlər xiyabanını ziyarət ediblər.

Sonra BDU-da işini davam etdirən forumda iştirakçıların təqdimatı keçirilib.

Azərbaycan Respublikasının təhsil naziri Misir Mərdanov forum iştirakçılarını salamlayıb, belə bir tədbirin ilk dəfə Bakıda keçirilməsini yüksək qiymətləndirib, onun əhəmiyyətini vurğulayıb.

Müstəqillik illərində Azərbaycanda təhsil sahəsində aparılmış köklü islahatlar barəsində iştirakçılara məlumat verən nazir bunun 1993-cü ildən, ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra başladığını vurğulayıb. Son illər Prezident İlham Əliyevin rəhbərliyi altında ölkədə aparılan geniş quruculuq işlərindən danışan M.Mərdanov bu inkişafın təhsil sahəsində də təcəssüm tapdığını, 2 mindən çox məktəbin inşa edildiyini, təhsilin maddi-texniki bazasının möhkəmlənməsi istiqamətində ardıcıl tədbirlər görüldüyünü qeyd edib. Təhsilin informasiyalaşdırılmasına, müasir texnoloci vasitələrin tətbiqinə geniş yer verildiyini bildirən nazir, hazırda ölkə üzrə hər 20 şagirdə 1 kompüter düşdüyünü diqqətə çatdırıb. Bu sahədə Azərbaycanın birinci xanımı, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun rolu, həyata keçirdiyi layihələr xüsusi vurğulanıb.

Forum iştirakçılarına Azərbaycanda ali təhsilin inkişafı istiqamətində görülən işlər barəsində də ətraflı məlumat verilib.

MDB humanitar universitetləri rektorlarının və humanitar fakültə dekanlarının Bakı forumunun sahə üzrə əlaqələrin inkişafı, mövcud problemlərin təhlili və onların aradan qaldırılmasının yollarının araşdırılması istiqamətində mühüm rolunu vurğulayan nazir beynəlxalq tədbirin işinə uğurlar arzulayıb.

Rusiya Federasiyasının MDB İşləri, Xaricdə Yaşayan Həmvətənlər və Beynəlxalq Humanitar Əməkdaşlıq üzrə Federal Agentliyinin nümayəndəsi Ənvər Şeyxov forum iştirakçılarını Agentliyin rəhbəri Farit Muxametşinin adından salamlamış, onun təbrik məktubunu oxuyub.

Federal Agentliyin bu il 85 yaşını qeyd etdiyini forum iştirakçılarının diqqqətinə çatdıran Ə.Şeyxov qurumun həm MDB daxilində, həm də digər ölkələrdə həyata keçirdiyi çoxsaylı layihələr barədə məlumat verib.

Rusiya Dövlət Humanitar Universitetinin rektoru, Rusiya-Azərbaycan Dostluq Jəmiyyətinin sədri Yefim Pivovar rəhbərlik etdiyi təşkilat adından Azərbaycan hökumətinə beynəlxalq tədbirin ilk dəfə Bakıda keçirilməsinə göstərdiyi köməyə görə minnətdarlığını çatdırıb.

Y.Pivovar Rusiya Rektorlar İttifaqının, Rusiya-Azərbaycan Dostluq Cəmiyyətinin İdarə Heyətinin foruma təbrik məktubları ilə iştirakçıları tanış edib.

Forumun gündəliyi təsdiq edildikdən sonra Yefim Pivovar "MDB dövlətlərində humanitar təhsil: problemlər və inkişaf perspektivləri" mövzusunda məruzə ilə çıxış edib.

Nahardan sonra forum işini "MDB dövlətlərinin humanitariyaları arasında əməkdaşlığın istiqamətləri və perspektivləri" mövzusunda "dəyirmi masa"da davam etdirib. "Dəyirmi masa"da qeyd olunub ki, forum yalnız humanitar universitetlər deyil, eyni zamanda, MDB xalqları arasında əməkdaşlığın və dostluq əlaqələrinin inkişafına müsbət təsirini göstərəcəkdir.

MDB ölkələrinin humanitar sahə universitetlərinin əməkdaşlığının möhkəmləndirilməsi məqsədilə Forumun daimi fəaliyyət göstərməsi, onun internet-portalının yaradılması, müvafiq sahələr üzrə ekspert komissiyalarının, illik elmi nəşrin yaradılması barədə qərar qəbul edilib, bu beynəlxalq tədbirin ardıcıl təşkili isə Əlaqələndirmə Şurasına həvalə olunub.

POÇT QUTUSU

Bakı Dövlət Universitetinin rektoru,
Millət vəkili, AMEA-nın həqiqi üzvü,
cənab Abel Məhərrəmova

Hörmətli Abel müəllim,

Azərbaycan Türkiyə İş Adamları Birliyinin (ATİB) 1918-ci il sentyabr ayının 15-də işğal altında olan Bakının Azərbaycan Demokratik Respublikasının Milli ordusu və Nuri Paşanın başçılıq etdiyi Osmanlı Türk İslam Ordusu tərəfindən azad edilməsinin ildönümünə həsr edilmiş tədbirləri çərçivəsində Türkiyənin Maltepe Universitetinin və Hərb Akademiyaları Strateji Araşdırmalar İnstitutunun müəllimi Dr. Orhan Çekiçin rəhbərlik etdiyiniz Bakı Dövlət Universitetinin tarix fakültəsinin tələbələri ilə görüşü barədə verdiyiniz göstərişə görə təşəkkür edirik.

Nəzərinizə çatdırırıq ki, 16 sentyabr 2010-cu ildə BDU-nun tarix fakültəsinin konfrans zalında baş tutan görüş yüksək səviyyədə keçmiş, tələbələr "Erməni probleminin iç üzü" mövzusunda geniş mühazirə oxumuşdur.

Fürsətdən istifadə edərək, Sizin şəxsinizdə BDU-nun bütün əməkdaşlarının verdikləri dəstəyə görə minnətdarlığımızı bildirir, ATİB və ATİB-in qurucusu olduğu Azərbaycan Türkiyə Tarix Araşdırmaları Fondunun fəaliyyətlərində iştirakınız üçün Sizə bir daha təşəkkür edir, işlərinizdə müvəffəqiyyətlər arzu edirik.

Hörmətlə,

Fatimə Aslan
İdarə Heyətinin sədri

Forumun birinci günü Əlaqələndirmə Şurasının iclası keçirilib

Forum iştirakçıları əvvəlcə BDU-da Heydər Əliyev muzeyi ilə tanış olub, universitetin fəxri doktorlarının və AMEA-nın üzvlərinin fotoları əks olunmuş stendə baxıblar.

Forumu açan Bakı Slavyan Universitetinin rektoru Kamal Abdullayev bildirib ki, ilk dəfə təşkil edilən beynəlxalq tədbirdə MDB üzvü olan 8 ölkənin 20-dən artıq ali məktəbindən 30 nümayəndə iştirak edir. Əlaqələndirmə Şurası forumda müzakirə olunacaq məsələləri, təşkili nəzərdə tutulan mədəni tədbirləri müzakirə edəcəkdir.

İclasda çıxış edən Rusiya Dövlət Humanitar Universitetinin rektoru, Rusiya-Azərbaycan Dostluq Cəmiyyətinin sədri Yefim Pivovar bildirib ki, ilk dəfə keçirilən forumun ideyası cari ilin yanvarında Bakıda təşkil edilmiş humanitar əməkdaşlıq üzrə Birinci Azərbaycan-Rusiya Forumunda meydana gəlib. Həmin vaxt forum iştirakçılarını qəbul edən Prezident İlham Əliyev MDB ölkələri arasında humanitar əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyini vurğulayıb, ziyalıların bu işə öz töhfələrini verməsinin zəruriliyini qeyd edib. Məhz bundan sonra MDB üzvü olan ölkələrin humanitar universitetləri rektorlarının forumunun keçirilməsi ilə bağlı təşkilati işlərə başlanılıb.

Y.Pivovar forumun təşkilinə və birinci toplantıya ev sahibliyi etdiyinə görə Azərbaycan tərəfinə minnətdarlığını çatdırıb. Qeyd olunub ki, forum yalnız humanitar universitetlər deyil, eyni zamanda, MDB xalqları arasında da əməkdaşlığın və dostluq əlaqələrinin inkişafına öz müsbət təsirini göstərəcək.

İclas iştirakçıları MDB-nin humanitar universitetləri rektorlarının və humanitar fakültə dekanlarının ilk toplantısının Bakı forumu adlandırılması barədə razılığa gəliblər.

Səhifəni təqdim etdi: BDU-nun mətbuat və informasiya şöbəsi

VƏTƏN DAŞI OLMAYANDAN OLMAZ ÖLKƏ VƏTƏNDAŞI

Milli qəhrəman Mübariz İbrahimova həsr olunmuş tədbir keçirildi

Azərbaycan silahlı qüvvələrinin hərbi qulluqçusu Mübariz Ağakərim oğlu İbrahimov 19 iyun 2010-cu il tarixində Ermənistan ordusunun çoxlu sayda əsgər və zabitini məhv edərək qəhrəmancasına həlak olmuşdur. Ölkə başçısının sərəncamı ilə o, "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Oktyabrın 8-də sosial elmlər və psixologiya fakültəsində "Vətən sağ olsun!" şüarı altında milli qəhrəman Mübariz İbrahimova həsr olunmuş tədbir keçirildi. Tədbiri giriş sözü ilə açan dekan, professor Hikmət Əlizadə Mübariz İbrahimovun igidliklərindən söz açdı və gəncləri vətənpərvər olmağa, hər zaman mübariz olub Vətənin keşiyində dayanmağa səslədi. Əlavə olaraq o bir qeyd də etdi: "Əgər müharibə başlayarsa, mən özüm şəxsən başda olmaqla, siz gənclərlə birgə müharibəyə getməyə hazıram". Dekan müavinləri dosent Arif Rüstəmov və dosent Üzeyir Şəfiyev öz çıxışlarında qəhrəmanın həyat və döyüş yolunu işıqlandıraraq bu yolu təqdir etdilər.

Daha sonra mövzu gənc politoloqların müzakirəsinə verildi. Onlar da öz növbələrində Mübariz İbrahimovun qəhrəmanlıqlarından fəxrlə danışdılar. Tələbələrdən Aqil Namazov qəhrəman haqqında bunları söylədi: "Bəzi insanlar həyatda öz mənafeləri naminə yaşayırlar, ancaq elə insanlar da var ki, öz həyatlarını vətəninə, xalqına həsr edirlər. Mübariz İbrahimov məhz xalqı üçün yaşayan və Vətəni naminə şəhid olan şəxslərdəndir. Özünün də dediyi kimi, təki "Vətən sağ olsun!" Tədbirdə Şəbnəm Muradova, Dəyanət Abbaszadə, Rövşanə Məmmədzadə, Elvar Hüseynov və digər gənclər Mübariz İbrahimovun qəhrəmanlıqlarından fəxrlə danışdılar. Tədbirin sonunda qəhrəmanlarımızın unudulmaması və daim anılması üçün tələbələrin hərbi hissədə əsgərlərlə, arxa cəbhədə isə şəhid ailələri ilə görüşlər keçirilməsi qərara alındı.

Elvar Hüseynov

15 oktyabr- Beynəlxalq Tələbə Günü

Beynəlxalq Tələbə Günü keçirilib

Bakı Dövlət Universiteti Tələbə Həmkarlar İttifaqı Komitəsi 15 oktyabr Beynəlxalq Tələbə Günü münasibətilə "Azərbaycan tələbəsi: problemlər və perspektivlər" adlı konfrans keçirib. Konfransı giriş sözü ilə açan Bakı Dövlət Universiteti Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Daşqın Qənbərov dünyanın ictimai-siyasi mühitində tələbə sosial qrupunun rolu və bu qrupun tərkib hissəsi olan Azərbaycan tələbəsinin mövqeyindən danışıb, tələbələrin istər ictimai, istər sosial, istərsə də hüquqi təminatları sahəsində tələbə təşkilatlarının xüsusi rola malik olduğunu qeyd edib. Azərbaycanda fəaliyyət göstərən tələbə təşkilatları arasında ən böyük təşkilat olan Tələbə Həmkarlar İttifaqı Komitəsinin sözügedən istiqamətlərdə həyata keçirdiyi tədbirlərə toxunan D.Qənbərov rəhbərlik etdiyi təşkilatın beynəlxalq miqyasda əldə etdiyi uğurlarından da söz açıb. Belə ki, MDB məkanında fəaliyyət göstərən tələbə təşkilatları, eləcə də dünya miqyaslı fəaliyyət sərgiləyən AIESEJ kimi təşkilatlarla həyata keçirilən birgə layihələrin beynəlxalq təcrübə mübadiləsi baxımından mühüm əhəmiyyət kəsb etdiyini bildirib. Nitqinin sonunda Daşqın Qənbərov Azərbaycan gənclərinin Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasəti dəstəkləmələrini xüsusi qeyd edərək, konfransın işinə uğurlar arzulayıb.

Daha sonra ayrı-ayrı mövzular ətrafında çıxışlar dinlənilib: curnalistika fakültəsi Tələbə Həmkarlar Təşkilatının sədr müavini Xəyalə Mahmudova "Boloniya prosesinə keçid: mənfi və müsbət tərəflər", ilahiyyat fakültəsi Tələbə Həmkarlar Təşkilatının sədri Kənan Hüseynov "Gənclərin asudə vaxtının təşkili problemi", Tələbə Həmkarlar İttifaqı Komitəsinin təlimatçısı Afaq Abdullazadə "Qiyabi və əyani təhsilə yanaşma", filologiya fakültəsi Tələbə Həmkarlar Təşkilatının sədri Elməddin Əmirov "Tələbələrin ictimai fəaliyyəti", geologiya fakültəsinin tələbəsi Ramin Səlimov "Tələbələrin mütaliə problemi" mövzularında çıxışlar edilib. Sonra Tələbə Həmkarlar İttifaqı Komitəsi sədr müavini Sahil Hacıyev iştirakçılarla öz fikirlərini bölüşüb, tədbir müzakirələrlə başa çatıb.

Azərbaycan aliminin xidmətləri beynəlxalq aləmdə qeyd edilib

Bakı Dövlət Universitetinin fizika fakültəsinin Fiziki elektronika kafedrasının professoru Əhliman Muradovun həyat və fəaliyyəti barədə məlumat "Kim kimdir?" proqramı üzrə kataloqa daxil edilmək üçün seçilənlər sırasındadır. Professor Əhliman Muradov plazma fizikası sahəsində uzun illərdir ki, çalışır. O, dünyanın bir sıra aparıcı elmi mərkəzlərində plazma elektronikası və spektroskopiyası üzrə təcrübə keçib, müştərək işlərdə iştirak edib.

Qeyd edək ki, "Kim kimdir?" proqramı üzrə kataloq 110 ildən artıqdır ki, Amerikada yaradılıb. Bu siyahıya dünya üzrə müxtəlif sahələrdə xüsusi xidmətləri olan 60 min nəfərə yaxın mütəxəssis haqqında məlumatın daxil edilməsi nəzərdə tutulub.

Bu görüş unudulmayacaq

MƏŞHUR TELEJURNALİST RAFİQ HƏŞİMOVUN TƏLƏBƏ JURNALİSTLƏRLƏ GÖRÜŞÜ

Bu dəfəki görüşü sözlə ifadə edə bilmirəm. Xeyli sayda bədii əsər oxumağıma baxmayaraq, ya söz ehtiyatım kifayət deyil, ya da görüş təəssüratlarımı ifadə etmək üçün dilimizin lüğət fondundakı sözlər mənə azlıq edir. Bir buna dəqiq əminəm ki, 12 oktyabrdakı görüş uzun müddət nə mənim, nə də qrup yoldaşlarımın - IV kurs curnalistika fakültəsinin tələbələrinin yaddaşından silinəcək. Bu dəfə peşəkar curnalistlərdən biri fakültəmizin qonağı oldu.

Görüş tədris tele-radio studiyasında keçirildi. Bu dəfəki mövzumuz "Curnalistin dil və nitq qüsurları" idi. Qonağımız isə Azərbaycan teleməkanında görkəmli curnalist, kinorecissor, ssenarist və ən əsası, diktor kimi tanınan Rafiq Həşimov idi. Gələcəyin curnalistləri olsaq da, Rafiq müəllim kimi diktorun yanında özümüzü bir qədər narahat hiss edirdik. Bu narahatlıq da əsassız deyildi. Auditoriyada bizi salamladıqdan sonra gecikdiyinə görə üzrxahlıq edən Rafiq müəllim: "Pavarotnik"də maşınım tıxaca düşdü, düz yarım saatdır ki, tıxacdan çıxa bilmirdim", - dedi. Daha sonra üzünü qrupa tutub sual verdi ki, "pavarotnik" sözünün tərcüməsi bizim dildə nə deməkdir? Müxtəlif versiyalar irəli sürsək də, tam hərfi tərcüməsini deyə bilmədik. Sən demə, "pavarotnik" sözünün hərfi tərcüməsi bizim dildə "döngəc" deməkmiş. (Əminəm ki, çoxlarınız üçün döngəc sözü yenilik oldu.)

Əvvəlki görüşlərimizdən fərqli olaraq, bu dəfə qonağımızla söhbətimiz sorğu şəklində olmadı. Rafiq müəllim öncə curnalist nitqinin nəzəriyyəsindən söhbət açdı. Söhbətinə dahi Sokratın "İnsanı danışanda görün" kəlamı ilə başladı. Söhbətlərimiz daha çox fəlsəfəyə köklənirdi. Mövzularımız da müdriklərin dilindən deyilmiş fəlsəfi fikirlərə, fəlsəfi nəzəriyyələrə və elmi sübutlara həsr olundu.

Rafiq müəllim daha sonra təklif etdi ki, qalan vaxtımızı məhz biz curnalistləri sınamaqla davam edək. Hər birimiz qısa mətnlər seçdik və sırayla oxuduq. Peşəkar diktor qarşısında nitqimizi yoxladıq; gərəkli qüsurlar deyildi, gerisi özümüzə qalır. Bax bu, əsl sınaq idi! Maraqlısı odur ki, bu 3 ildən çox müddətdə öz yoldaşlarımızın dilindəki qüsurları, demək olar ki, hiss etməmişdik. Onun üçün isə bu, olduqca sadə idi. Bəzən iki cümlə kifayət idi ki, yanlışlıqları rahat seçə bilsin. Peşəkarlıq bax buna deyərlər! Daha sonra Rafiq müəllim bizə danışarkən diqqət etməli olduğumuz bir sıra qaydaları yazdırdı. Belə qənaətə gəlmək olar ki, nitqi gözəlləşdirmək üçün bu şərtlərə əməl etmək zəruridir: poeziya (yüksək səslə şeir demək) və mahnı oxumaq.

Nəhayət, son. Unudulmayan və xatirələrdə əbədi iz qoyacaq son. Sağollaşmazdan öncə Rafiq müəllim özünün yazdığı bir mətni bizim üçün oxudu. "Mən azadlığı sevirəm" başlıqlı bu köşə yazısında, bəlkə də, çoxlarımızın ürəyindən keçən sözlər elə yazılmışdı ki, qüsur tapmaq qeyri- mümkün idi. İlk dəfə idi ki, 45 nəfərdən ibarət qrupa dərin bir səssizlik çökmüşdü. Bu səsizliyi yalnız Rafiq Həşimovun qulağa yatımlı, ecazkar səsi pozurdu. Lakin burada başqa bir peşəkarlıq da hiss olunurdu. Yazıya əlavə gözəllik qatan onun oxunma şəkli idi. İntonasiya və ən əsası, məntiqi vurğuların düzgün işlədilməsi, səslərin düzgün tələffüzünü sanki ilk dəfə idi ki, yanız onun nitqində aydın seçirdik. Sanki bu günə qədər nitq haqqında öyrəndiyimiz nəzəriyyələrin canlı ifaçısı məhz bu insan imiş. Axıcılıq, sərbəstlik və gerçəkdən, sərlövhədə yazıldığı kimi, azad olmaq istəyən bir insanın nəfəsi duyulurdu o yazıda. O, diktor olaraq auditoriyamızdakı bu son nitqi ilə əslində bizə izah etmək istəyirdi ki, oxu tərzi məhz belə olmalıdır.

Hər şey üçün təşəkkürlər, Rafiq müəllim!

P.S. *Rafiq müəllimin sağollaşarkən işlətdiyi son cümlələr hələ də beynimdə dolaşır. Əlini ürəyinin üstünə qoyub: "Heç nəyi unutmadım ki? Vicdan yerində... Əsas odur. Sağ olun, dostlar!" - dedi və getdi. Hər kəs özünə yaraşanı edər, deyirlər. Peşəkar telecurnalistdən də ancaq belə bir vidalaşma gözləmək olardı.*

Dürrə HƏSƏN

Azərbaycanlı tələbələrin dünyaya inteqrasiya yolları

Oktyabrın 14-də Tələbə Həmkarlar İttifaqı Komitəsi və dünyanın ən böyük tələbə təşkilatlarından olan AIESEC humanitar məsələlər üzrə dekan müavinləri və fakültə Tələbə Həmkarlar Təşkilatlarının sədrləri üçün "Azərbaycanlı tələbələrin dünyaya inteqrasiya yolları" adlı tanıtım tədbiri keçirib. Tədbirdə hər iki təşkilat arasında əməkdaşlıq istiqamətləri müəyyən edilib. Çıxış edən THİK sədri Daşqın Qənbərov komitənin beynəlxalq əlaqələrinin genişlənməsi baxımından tədbirin əhəmiyyətini xüsusilə qeyd edib. Eyni zamanda AIESEC-in Budapeşt üzrə koordinatoru Mihai Adrian çıxış edərək iştirakçılara təşkilat barədə geniş məlumat verib. Təşkilatın həyata keçirdiyi tədbirlər, fəaliyyət istiqamətləri, məqsədləri barədə iştirakçılara qısamüddətli film nümayiş etdirilib.

5 oktyabr - Beynəlxalq Müəllimlər Günüdür

Dediklərin doğru imiş sətir-sətir...

Müəllim! Bizim üçün gözəl, doğma səslənişə malik bir kəlmə. Doğmadır, ona görə ki hər kəsin həyat yolu bu müqəddəs adı şərəflə daşıyan, mükəmməl insani xüsusiyyətlərə malik şəxsiyyətlərdən dərs almaq, nümunə götürməklə başlayır. Müəllim xalqın vicdanı, vuran nəbzi, döyünən ürəyi, düşünən beynidir. Odur ki, müəllimlik dünyada ən çətin, eyni zamanda ən məsuliyyətli, şərəfli və gözəl peşədir. Məhz müəllim əməyinin nəticəsində cəmiyyət formalaşır, savadlı, geniş dünyagörüşünə, nümunəvi əxlaqa malik insanlar yetişir və onlar cəmiyyəti daha da inkişaf etdirirlər. Gənc nəslin layiqli vətəndaş kimi yetişməsində müəllimin əvəzsiz xidmətləri vardır. Vətənini, xalqını, dilini sevən, hərtərəfli biliyə, müstəqil və yaradıcı düşüncəyə malik, yüksək əxlaqi keyfiyyətləri özündə birləşdirən vətəndaş yetişdirmək istiqamətində apardıqları böyük işlərə, əvəzedilməz xidmətlərə görə xalqımız hər zaman fədakar müəllimlərimizə minnətdardır.

Müəllimlər təbiətin şah əsəri olan insanı bütün zamanlarda: dünən, bu gün, sabah kamilliyə doğru inkişaf etdirən qüdrət sahibləridir. Bu səbəbdən müəllimlik ən müqəddəs, ən şərəfli, humanist və vətənpərvər sənət hesab edilir.

Müəllimi işıqla, həyat mənbəyi olan günəşlə müqayisə edənlər, həqiqətən də, haqlıdırlar. Ona görə ki müəllim yalnız tələbələrinin beynini elmin nuru ilə işıqlandırmaqla kifayətlənmir, həmçinin təlimin tərbiyəedici imkanlarından istifadə edərək onlara insani keyfiyyətlər aşılayaraq cəmiyyətimiz, vətənimiz üçün müsbət idealların daşıyıcısı olan vətəndaşlar yetişdirir. Odur ki, ümummilli liderimiz Heydər Əliyev müəllimlərə qayğı ilə yanaşmış, müəllim adından uca ad tanımadığını vurğulamış, onlara hörmət və ehtiramını bildirərək onları qəhrəman adlandırmışdır: "Həyatını müəllimliyə həsr edən insanlar, həqiqətən də, fədakar, xalqına, millətinə sədaqətli və eyni zamanda qəhrəmanlıq göstərən insanlardır".

Müəllimlərin milli şüurun inkişafında misilsiz rolu vardır. Dahilər, böyük elmi kəşflər edən alimlər, öz xalqını, ədəbiyyat və mədəniyyətini dünyaya tanıdan sənətkarlar, vətən uğrunda canından keçmək iradəsinə malik qəhrəmanlar da öz müəllimlərinə minnətdar olmalıdırlar. Müəllim ömrü boyu şölələnən, ətrafa nur çiləyən elə bir müqəddəs varlıqdır ki, əbədi məkanı qəlbdir - ürəklərdir.

"Müəllimin həyatda ən böyük qazancı nədir?" - deyə soruşulsa, "Tələbələrin hörmətini, sevgisini qazanmaq, onların həyatda özlərini təsdiqi, xoş sədalarının eşidilməsi, vətənə layiq övlad olduqlarını görməkdir", - deyərdim.

Biz hər zaman flaqman olan universitetimiz, bizə elm aləminin sirlərini öyrədən, mükəmməl təhsil verən və həyatı sevdirən müəllimlərimizlə fəxr edirik. Onlara sağlamlıq, fərəh, yeni-yeni uğurlar arzulayırıq. Dünyasını dəyişən müəllimlərimizə Allahdan rəhmət diləyir, onları unutmuruq. Onlar hər zaman ürəyimizdə əbədi və əvəzedilməz yüksək mövqeyə sahibdirlər. Uğurlarımızın təminatçısı olan dərin zəka sahiblərini - müəllimlərimizi tələbələrin və universitet məzunlarının adından 5 oktyabr Beynəlxalq Müəllimlər Günü münasibətilə ürəkdən təbrik edir, onlara təşəkkürümüzü bildiririk. Həyat və sənət yollarımızı ürəklərinin atəşi ilə nurlandırdıqları üçün hər zaman onlara minnətdar olacağıq.

Dadaşova İlahə
Filologiya fakültəsinin məzunu

18 oktyabr - Müstəqillik Günüdür

MƏNİM AZADLIĞIM

Oktyabrın 20-də 20 yaşım tamam oldu. Doğum günümü qeyd edərkən dostlarımdan biri məndən bir neçə ay, digərləri bir neçə yaş böyük olduqlarını bildirdilər və bir anlıq özlərini öyməyə başladılar. Sakit bir tərzdə gülümsəyərək dedim: "Yaxşı ki, 3 gün əvvəl doğulmamışam".

Digər bir dostum təəccüblə soruşdu:
- Niyə məhz 3 gün?
- Çünki mən "azad"am.

Dostumun bu cavabımdan heç bir şey anlamadığını duydum və fikrimi sonra əsaslandıracağıma dair söz verdim. Dostuma verdiyim sözü yerinə yetirmək üçün bir gün sonra yazdığım düşüncələrimi sizlərlə bölüşmək istəyirəm.

"Dostum, mən 3 gün öncə doğulsaydım, o zaman əsarət altında bir gün keçirməyə məcbur olacaqdım. Buna görə də azadlığı mənə bəxş edənləri heç bir zaman unutmayacağıma söz vermişəm. Mən doğulandan iki gün öncə - 18 oktyabr 1991-ci ildə Azərbaycan SSR Ali Soveti "Müstəqillik haqqında Konstitusiya aktı"nı təsdiq etmişdir ki, bu gün tək mənim yox, bütün xalqımızın həyatında çox mühüm rol oynamışdır.

Dostum, azadlığın ləzzətini sənə, mənə və bütün Azərbaycana daddıran həmin gün yenidən üçrəngli bayrağımız başımız üzərində dalğalanmağa başladı. Həmin günün gəlişi heç təsadüfi deyildir, axı illər öncə azadlığı yaşamış və əsarət altında yaşamaqdan bezmiş bir xalqı itaətdə saxlamaq olmazdı. Axı bu xalqın Azərbaycan Xalq Cümhuriyyəti kimi demokratik bir respublikası qurulmuşdu. Sovet işğalından sonra Azərbaycan ziyalılarının məhvi hesabına müstəqillik arzularını boğmağa çalışan rejim 70-ci illərdən sonra artıq anlamağa başladı ki, Azərbaycanda yeni nəsil ziyalılar əsarətdə yaşamaq istəməyəcəklər. Sovet hökuməti çox çalışsa da, öz məhvinə mane ola bilmədi.

Dostum, bilirsən, tarix öz-özünə yazılmır. "Hər bir xalq tarixini öz qanı ilə yazır". Bizim də müstəqillik yolunda çox qanlarımız axıdılıb. Əslində, elə əsas borclu olduğumuz da məhz ONLARDIR. Onlar öz canlarını boşa vermədilər. Biz bizdən öndəki nəslin öz qanı hesabına əldə etdiyi Azadlıq bayrağını təhvil aldıq. Bu əmanəti qoyurub gələcək nəsillərə çatdırmaq isə hər birimizin ən müqəddəs borcu olmalıdır.

Dostum, mən sənə qısa da olsa, özümün fəxr mənbəyim olan bir tarixdən - müstəqillik tarixindən danışmağa çalışdım. Məndən yaşca böyük olmağına gəldikdə isə əsarətdə bir gün belə olsa, yaşamadığım və Azərbaycan Xalq Cümhuriyyətinin hüquqi varisi olan müstəqil Azərbaycan Respublikasında dünyaya göz açdığım üçün özümlə fəxr edirəm. Onu da etiraf edim ki, "yalnız 18 oktyabr 1991-ci il tarixində doğulanlara paxıllığım tutur. Çünki onlar azadlığı məndən iki gün daha çox yaşayıblar".

Allahverdiyev Elmin,
filologiya fakültəsinin II kurs tələbəsi

Prezident təqaüdçüsü

Aysel Bəşirli: "İmtahan günü artıq bilirdim ki, Prezident təqaüdçüsü olacağam"

Bu il Prezident təqaüdçüləri sırasına adını yazdıran, ən yüksək bal toplamış tələbələrdən biri də Aysel Bəşirlidir. 695 balla tətbiqi-riyaziyyat və kibernetika fakültəsinə daxil olan Aysel nə liseylərdə təhsil alıb, nə də illərlə müəllim yanında hazırlaşıb.

Aysel Salyan şəhərində anadan olub. Ailədə üç uşaqdırlar, Aysel isə evin sonbeşiydir. Adətən, ailənin sonbeşiyi ərköyün olur, Aysel isə heç vaxt ərköyünlük etməyib. Anası həkim, atası mühəndisdir. Amma ailədə iki bacı məhz riyaziyyat elminin dərinliklərini öyrənməyi qarşılarına məqsəd qoyublar. Böyük bacısı da Bakı Dövlət Universtetinin tələbəsidir. İki il öncə mexnika-riyaziyyat fakültəsinə yüksək balla daxil olub.

Görəsən, bacılara riyaziyyatı sevdirən kim olub? Aysel bir az düşündükdən sonra: "Yəqin ki, həm qohumumuz, həm də müəllimiz olan Məmmədağa müəllimin sayəsində bu fənni sevmişik, bu elmə bağlanmışıq. Onun özünəməxsus dərs keçmə metodları var. O qədər maraqla izah edirdi ki, ona qulas asanda nəinki yorulur, hətta zövq alırdıq", - dedi.

"Dəqiq elmlərə daha çox meyl edirdim"

Məktəb həyatı ilə maraqlandıq. İlk dəfə məktəbə qədəm basdığı günü yaxşı xatırlamasa da, bacı və qardaşı ondan böyük olduğu üçün onlara baxıb hərfləri, yazıb-oxumağı hələ məktəbə getməmişdən öyrənibmiş. Məktəbdə isə "əla" qiymətlərlə oxuyub, yalnız sonuncu siniflərdə bəzi fənlərə görə "əlaçı" adını itirib: "Dəqiq elmlərə daha çox meyil etdiyimdən coğrafiya, biologiya kimi fənləri qavramaqda bir az çətinlik çəkirdim. Buna görə də qiymətim bir bal aşağı düşdü və məktəbi fərqlənmə ilə bitirə bilmədim". Buna baxmayaraq, Aysel çoxlarından fərqli olaraq, gərgin əməyi, biliyi sayəsində topladığı yüksək balla Prezident təqaüdçüləri sırasına adını yazdırıb: "Gündəlik dərslərimə yaxşı hazırlaşır, xüsusən də təkrarlara daha çox yer ayırırdım. Cəmi bir il hazırlığa getmişəm. Sonuncu ay isə ancaq öyrəndiklərimi təkrarlayırdım".

"Evdə hamı bir-birini təbrik edirdi"

Aysel Prezident təqaüdçüsü olacağına da elə imtahan günü əmin olub: "İmtahandan çıxarkən topladığım balı artıq hesablamışdım və bu balla, şübhəsiz ki, bu təqaüdə layiq görüləcəkdim. İlk dəfə isə bu xəbəri bizə təhsil şöbəsini müdiri çatdırdı. Əvvəldən bu adı alacağıma əminliyim olsa da, bu xoş xəbəri eşitdiyimdə çox sevindim. Evdə hamı bir-birini təbrik edirdi.

Aysel riyaziyyatçı olsa da, bədii mütailəni də sevir: "Hərçənd imtahanlara hazırlaşan zaman buna vaxtım qalmırdı, amma bir az aşağı siniflərdə əlimə düşən bütün bədii romanları, povest və hekayələri böyük həvəslə oxuyurdum. Ən çox da yazıçı Anarın, Mir Cəlal Paşayevin əsərləri xoşuma gəlir. Alacağım təqaüdün də bir qismini kitablara xərcləməyi düşünürəm".

"Mənfi xüsusiyyətlərimdən biri özümə inamsızlığımdır"

- Məktəb, yoxsa universitet: hansı sənə daha çətin gəlir?

- Əlbəttə, universitet. Burada dərslər bir az çətindir. Bəlkə də, hələ tələbə həyatına yeni qoşulduğum üçün hər şey mənə olduğundan daha ağır görünür. Çalışıram ki, bu çətinliklərin öhdəsindən gəlməyi bacarım. Çünki Prezident təqaüdçüsü kimi şərəfli bir adı itirmək istəmirəm. Həm də öz sahəm üzrə savadlı mütəxəssis kimi yetişmək istəyirəm.

Müsahibə zamanı Ayselin həddindən artıq çəkingənliyi, utancaqlığı və bir qədər də özünə inamsızlığı gözümüzdən qaçmadı. Səbəbini isə belə açıqladı: "Doğrudur, mənfi xüsusiyyətlərimdən biri özümə inamsızlığımdır. Baxmayaraq ki, sınaq imtahanlarında həmişə yüksək bal toplayırdım və imtahanı uğurla verəcəyimə ətrafımdakılar da əmin idi, amma haradasa ürəyimin dərinliyində buna inanmırdım. Düşünürdüm ki, savadım yetərli deyil. Bacım iki il, mən isə bir il hazırlaşmışam, deməli, heç nəyə nail olmayacağam. İndi universitetə qəbul olmuşam. Amma yenə də özümə güvənmirəm. Digər tərəfdən də cəmiyyətin fikirlərinə çox önəm verirəm. Hər addımımı, qərarımı ətrafımdakı insanlara görə atıram. Bu da təbii ki, mənim daim sıxılmağıma, "bəlkə, nəyisə səhv edirəm" - deyə düşünərək utanmağıma, nəticə olaraq isə özümə inamsızlığıma gətirib çıxarır. Amma çalışacağam ki, bu cəhətimlə mübarizə aparım. Bilirəm ki, özünə güvənmədən və cəsarətli olmadan uğur qazanmaq çətindir".

Aynur Qurbanqızı

MƏNALI ÖMÜR

Sağlığında özünə hörmət qazananlar ölümündən sonra rəhmət qazanarlar. Əbədiyyətə qovuşduqdan sonra belə, yaxşılar yaxşı, pislər isə pis əməlləri ilə yada düşürlər.

Ömrünün mənasını müəllimlikdə görüb, həyatının sonuna kimi bu sənətin ecazkar aləmində Fərhad kimi külüng çalan Adil Mahmudov həmkarlarının qəlbində bu gün də zəhmətkeş alim, işıqlı insan kimi yaşayır.

Adil Ümid oğlu Mahmudov 1937-ci ildə Ucar rayonunun Güləbənd kəndində anadan olmuşdur. 1953-cü ildə ADU-nun fizika fakültəsini fərqlənmə diplomu ilə bitirmiş və universitetdə saxlanılmışdır. Sonra təhsilini Moskva Pedaqoji İnstitutunun aspiranturasında davam etdirmiş, burada ultrasəs dalğalarının üzvi maddələrdə yayılmasının fiziki mahiyyətinin aydınlaşdırılması, eyni zamanda bunun tibbdə, sənayenin müxtəlif sahələrində tətbiqinə aid tədqiqatlar aparmış və 1966-cı ildə namizədlik dissertasiyasını müdafiə etmişdir. 1967-ci ildə o, universitetə qayıtmış, burada müəllim, dosent vəzifələrində çalışmışdır.

A.Mahmudov xarici ölkələrdə fizika fənnini tədris etmək üçün 1973-cü ildə Moskvanın Xarici Dillər İnstitutunda fransız dilini öyrənmiş və Afrikanın Mali Respublikasının ali məktəblərində üç il dərs demişdir. Yenidən universitetə qayıtdıqdan sonra fizika fakültəsində dosent, 1990-cı ildə isə Optika və molekulyar fizika kafedrasının müdiri vəzifəsində çalışmışdır. Eyni zamanda elmi tədqiqatlarını davam etdirmiş, moskvalı həmkarları ilə əməkdaşlıq etmiş, 1989-cu ildə Moskvada doktorluq dissertasiyasını müdafiə etdikdən sonra ömrünün sonuna kimi BDU-nun Optika və molekulyar fizika kafedrasının professoru vəzifəsində çalışmışdır.

Adil müəllim universitetdə fəaliyyət göstərən "Molekulyar fizika və polimerlər fizikası" ixtisası üzrə ixtisaslaşmış müdafiə şurasının elmi katibi, biofizika ixtisası üzrə müdafiə şurasının, respublika üzrə təşkil olunmuş fizika metodik şurasının üzvü, orta məktəblər üçün yeni fizika proqramı tərtib edən komissiyanın, universitetin fizika fakültəsində metodik şuranın sədri idi.

Professor A.Mahmudov çoxu keçmiş Sovet İttifaqının jurnallarında, xarici ölkə jurnallarında çap olunmuş 50-dən artıq elmi əsərin, monoqrafiyanın, metodik vəsaitin müəllifi idi. O, ömrünün sonuna kimi elmi araşdırmalarını davam etdirmiş, gənc elmi kadrların hazırlanması üçün əlindən gələni əsirgəməmişdir.



Gözəl müəllim, ləyaqətli insan, səmimi dost

Adil müəllimlə tələbəlik illərindən - 1954-cü ildən tanış idim. Hələ o illərdən öz davranışı və dərsə münasibəti ilə nümunəvi tələbələr sırasında idi. Adil müəllim Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) fizika fakültəsini müvəffəqiyyətlə bitirdikdən sonra o zamankı dekanımız mərhum dosent Mədət Sərdarlının seçimi ilə aspiranturaya daxil olaraq Moskva Vilayət Pedaqoji İnstitutuna ezam olundu. Adil müəllim molekulyar akustika sahəsində ünlü mütəxəssis prof. Q.Nozdrevin rəhbərliyi ilə namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək məzunu olduğu fizika fakültəsində elmi-pedaqoji fəaliyyətə başlamış və ömrünün son saatlarınadək üzərinə düşən vəzifəni şərəflə yerinə yetirməklə məşğul olmuşdur. Hər ikimiz elmi-pedaqoji fəaliyyətimizi eyni kafedrada - Optika və molekulyar fizika kafedrasında davam etdirirdik. Qismət elə gətirdi ki, Adil müəllim bizim sıraları vaxtsız tərk edərək əbədiyyətə qovuşdu. Allah ona rəhmət eləsin, məzarı nurla dolsun. Adil müəllim belə dualara artıqlaması ilə layiqdir.

Həyat çox mürəkkəbdir. Bizə nəsib olan ictimai formasiya dəyişikliyi və bu dəyişikliyi müşayiət edən keçid dövrü həmin mürəkkəbliyi dəfələrlə artırır. İnsanların da əsl simasi məhz belə çətin şəraitdə üzə çıxır. Adam var ki, öz şəxsi marağı üçün nəinki dostunu, hətta əzizlərini zərbə altında qoyur, adam da var ki, heç bir ağır şərait onun mənliyini, insanlığını dəyişdirmir, əksinə, belə çətin şəraitdə onun yeni-yeni yüksək, insani keyfiyyətləri üzə çıxır. Adil müəllim məhz ikincilərin sırasındı ön yer tutan həmkar və dost idi.

Müəllimlik keyfiyyətlərinə gəldikdə burada da Adil müəllim ön sıralarda idi. O, üzərinə düşən hər bir işə vicdanla və böyük məsuliyyətlə yanaşırdı. On illər boyu molekulyar fizika və mexanikadan dərs deməsinə baxmayaraq, hər yeni tədris ilində mühazirələrini yenidən gözdən keçirər və onları daha təkmil hala gətirərdi. Dərslik və dərs vəsaitlərinin yazılması sahəsində də Adil müəllimin böyük xidmətləri vardır.

Elə müəllim var ki, onun adı dünyasını dəyişdiyi andan tarixdən silinir, elə müəllim də var ki, onun əziz xatirəsi həmişə dost və həmkarlarının ürəyində yaşayır. Adil müəllim bu siniflərdirmədə də ikincilər sırasında olan şəxsiyyət idi. Həmkarları və ümumiyyətlə, onu tanıyanlar arasında Adil müəllimdən narazı qalan ola bilməz. Çünki Adil müəllim yüksək mənəviyyata malik insan idi, onun dedi-qodu, giley-güzar, söz gəzdirmə, onun-bunun arxasınca danışıb üzünə gülmə və böhtan atma kimi çirkin işlərlə heç bir əlaqəsi yox idi. Onun qayğıları və fəaliyyəti ailə, tədris və elmlə əlaqədar idi. Bütün birgə fəaliyyətimiz eyni kafedrada davam etsə də, tutduğumuz mövqelərdə fərqli olduğumuz zamanlara da rast gəlinir. 16 il mən onun kafedra müdiri olmuşam, beş il isə o mənim kafedra müdirim olmuşdur. Bu vəzifənin qarşılıqlı, səmimi dostluğumuza heç bir təsiri olmamışdır. Nəinki şərait, hətta vəzifə də Adil müəllimi dəyişdirə bilmədi. O, həmişə ləyaqət və sədaqəti ilə seçildi. Allah Adil müəllimə rəhmət eləsin.

Niftalı QOCAYEV
professor

Adil müəllim əsl ziyalı idi

Mənim tələbəliyim Adil Mahmudovun müəllimliyə başladığı illərə təsadüf edirdi. Lakin o zaman onunla elə də ünsiyyətimiz yox idi. 1970-ci ildə Xarkov şəhərində aspiranturanı bitirib yenidən Bakı Dövlət Universitetinə qayıtdıqdan sonra isə onunla aramızda çox səmimi münasibət yarandı. Bu səmimiyyət qısa bir zamanda yoldaşlığa, daha yaxın dostluğa çevrildi. Bu dostluğun qeyri-adiliyi bir də onda idi ki, təkcə özümüz deyil, həyat yoldaşlarımız və övladlarımız da bir-birləri ilə yaxın ünsiyyət qura bilmişdilər (övladlarımız eyni məktəbdə, eyni sinifdə oxuyurdular). Yaxın qohumlarımın və dostlarımın olmasına baxmayaraq, mən Bakıda olmadığım vaxtlarda ailəmin qayğılarını Adil müəllim öz üzərinə götürərdi. Son dərəcə etibarlı, sədaqətli, xüsusən körpələrə qarşı qayğıkeş insan idi. Bəzən düşünürəm ki, o illər təkcə bizim ailənin deyil, elə Adil müəllimin də ailəsinin ən xoşbəxt dövrü idi.

Adil Mahmudov sözün həqiqi mənasında əsl ziyalı, alim və pedaqoq idi. O, fizikanı (yəni təbiəti) çox yaxşı hiss edirdi. Fizika məsələləri həllinin əsl ustası idi. Bizim onunla çoxlu sayda müştərək işlərimiz olmuşdur. Son işlərimizdən biri isə "Molekulyar fizika" kitabı idi. Təəssüf edirəm ki, bu işimiz yarımçıq qaldı. Taleyin amansız yazısı bu kitabı başa çatdırmağa imkan vermədi. Adil müəllim ömrünün ən məhsuldar bir dövründə aramızdan getdi. Bu bir tale yazısı idi.

Adil müəllimlə bağlı xatirələrim çoxdur. Bir qəzet səhifəsində bunların hamısını yerləşdirmək mümkün deyil. Bircə bunu deməliyəm ki, onun yoxluğunu hər zaman hiss edirəm. O boşluğu heç kəs doldura bilməz.

Eldar MƏSİMOV
Maddə quruluşu kafedrasının müdiri, professor

İLHAMƏ HACIYEVA
Filologiya elmləri doktoru

NİTQ MƏDƏNİYYƏTİ

Doğma ana dilinin incəliklərinə dərindən bələd olmadan ikinci dilə effektiv yanaşmaq mümkün deyil

Dilçilik sahəsində "Nitq mədəniyyəti" fənni qabarıqlığı ilə seçilir. Belə ki, çağdaş dövrdə dilimizlə bağlı nəzəri problemlər üzrə ciddi tədqiqat işləri aparılır, təcrübi məsələlərə geniş yer verilir. Bu, zamanın, dövrün tələbidir. İnkişaf edən cəmiyyətdə dillə bağlı problemlər diqqətdən kənarda qala bilməz.

Nitq mədəniyyəti məsələləri dilçiliyin gənc sahələrindəndir. Tədqiqat yönünü yeniləyən bu sahədə böyük perspektivlər var. Köhnə, şablon stereotiplərdən azad olmaq, təzələnmək, müasirləşmək inkişaf tempinə uyğun olmalıdır. Bu gün nitq mədəniyyəti hərtərəfli, ahəngdar inkişaf etmiş şəxsiyyətin intellektual göstəricisidir.

Məsələyə geniş çərçivədə yanaşdıqda isə nitq mədəniyyətinin bütövlükdə ümumxalq mədəniyyətinin ayrılmaz bir hissəsi olduğunu aydın görürük. Danılmazdır ki, bu gün ictimai-siyasi vəziyyət dil-nitq prosesinə güclü şəkildə təsir etməkdədir.

Çağdaş Azərbaycan dili öz mahiyyətinə görə, eləcə də struktur və funksional baxımdan inkişaf etmiş dillərdəndir. Dilimiz özünün fonetik və qrammatik quruluşunun stabilliyi, söz ehtiyatının zənginliyi, son olaraq bütün dil qatlarını bir sistem halında birləşdirən linqvistik normaları ilə səciyyələnir.

Tarix boyu Azərbaycanda hökm sürən ikidillilik və çoxdillilik dilimizin müasir səviyyəsində də öz əksini tapır. Blinqvizm (ikidillilik) və multilinqvizm (çoxdillilik) Azərbaycan-ərəb, Azərbaycan-fars-rus dil mühitinin yaranmasında aydın şəkildə əks olunmuşdur. Çağdaş dövrdə xarici dili öyrənməyə daha çox meyil göstərən gənclərimiz unudurlar ki, doğma ana dilinin incəliklərinə dərindən bələd olmadan ikinci dilə effektiv yanaşmaq mümkün deyil. Y.Seyidovun fikrincə, insan həyatının müəyyən yaş dövrlərində başlayan ikidillilik keyfiyyətləri ali məktəbdə ədəbi dil səviyyəsində formalaşır. Çünki bu, ikidilliliyin komponentləri olan ana dili və xarici dil arasındakı struktur daxili qarşılıqlı əlaqənin üzə çıxarılması deməkdir. Yəni öyrənilən dilin fonetik sistemi, qrammatik quruluşu, söz ehtiyatı, semantik və üslubi xüsusiyyətləri yalnız ana dilinə dərindən bələd olduqdan sonra lazımi səviyyədə mənimsənilə bilər. Dillərin oxşar və fərqli xüsusiyyətlərini dərk etmədən yüksək səviyyənin əldə edilməsi mümkün deyil. Tarix sübut etmişdir ki, heç bir xalq öz elmi-mədəni, ictimai-siyasi inkişafında təcrid olunmuş şəkildə formalaşa bilməzdi. İkidillilik bütün xalqlarda inkişaf üzrə özünü göstərmişdir.

Dil və cəmiyyət probleminin aktuallığı, dil siyasətinin geniş sosial məzmunu daim diqqət mərkəzindədir. Çağdaş dövrdə dövlətlərarası sazişlər, anlaşmalar bir daha bu məsələnin nə qədər mühüm olduğunu təsdiqləyir. Ədəbi dilimizdə gedən söz yaradıcılığı prosesi lüğət tərkibində yeniləşmə və zənginləşməyə daha bir əsas vermişdir. Bunu əsas götürərək bu gün hər bir ziyalı, ali təhsilli mütəxəssis nitq mədəniyyətinə, ədəbi dilimizin normalaşma prosesi və danışıq dilinin əsas xüsusiyyətlərinə, eləcə də yazı mədəniyyətimizə diqqətlə və tələblə yanaşmalıdır.

Tələbələrin xarici dillər üzrə bilik mübadiləsi

Universitetimizin tədris etdiyi fənlər arasında xarici dil fənləri önəmli yer tutur. Bakı Dövlət Universitetində ingilis, rus, fransız, ərəb, fars, alman, yapon, çin, koreya, urdu, türk və ivrit dilləri tədris olunur. Mövcud tədris proqramı əsasında tələbələr təhsil aldıqları ixtisasa uyğun xarici dillər üzrə bilik əldə edirlər. Eyni dil fənni üzrə təhsil alan bir neçə fakültənin tələbələri arasında bu dil sahəsində bilik və məlumat mübadiləsi mövcud deyil. Eyni zamanda həmin dilin tədris olunduğu hər bir fakültədə tədris proqramı müxtəlif formada müəyyən olunmuşdur. Bu, tələbələrin həmin dil sahəsini proqram çərçivəsində və məhdud şəkildə öyrənmələrini təmin edir. Bu isə özlüyündə mənimsənilən fənn üzrə daha geniş bilik və informasiyaların əldə edilməsini müəyyən çərçivələrlə əhatə edir. Mövcud fakt proqram fərqliliklərində də özünü aydın şəkildə büruzə verir.

Tələbələrin əldə etdikləri biliklər müqayisə və təhlil olunduğu zaman onların qeyd olunan fənnin tədrisinə yanaşma tərzi də mühüm amil hesab olunur. Universitetimizin tələbələri arasında təhsil aldıqları xarici dillər üzrə müəyyən informasiya və bilik mübadiləsi meydana gələrsə, bu həm tədrisin keyfiyyətinə, həm də tələbələrin universitetdaxili münasibətlərinə müsbət təsir göstərə bilər. Bütün qeyd edilmiş amillər nəzərə alınaraq, Bakı Dövlət Universiteti daxilində tədris olunan xarici dillər üzrə tələbələrin qarşılıqlı bilik mübadiləsi təşkil edilərsə, tələbələrin müəllim və pedaqoqlardan, o cümlədən dil kurslarından fərqli olaraq, eyni yaş və vəzifəyə malik tələbə yoldaşları ilə münasibətdə olmaqla bilik dairələrini genişləndirmələri üçün gözəl imkan əldə olunar. Tələbələr konkret yeni biliklər əldə etdikdən sonra bu biliyi öz tələbə yoldaşları ilə də bölüşmək imkanı əldə etmiş olurlar. Bu, həmin fənn üzrə müxtəlif biliklərin genişlənməsinə və daha təkmilləşmiş formada tədris olunmasına yardımçı ola bilər. Bu zaman Bakı Dövlət Universitetinin xarici dillər üzrə təhsil alan tələbələrinin qarşılıqlı diskussiyası, məlumatların digər fakültələrdə təhsil alan tələbələrlə bölüşdürülməsi, klassik və müasir ədəbiyyatın təhlili və digər bu kimi üsullarla bilik bazasının genişləndirilməsi üçün müəyyən şərait meydana gəlmiş olur.

Əgər bu bilik mübadiləsi sistemli şəkildə və mərhələlərlə həyata keçirilərsə, tələbələr bu mərhələlərdən hər hansı birində nəzəri biliklərin genişləndirilməsi üçün xarici dillə əlaqəli ictimai mərkəzlərlə praktiki tanışlıq da həyata keçirə bilərlər. Eyni zamanda universitetimizin saytında bununla əlaqədar olaraq elektron bazanın təşkili də mümkündür.

Universitetimiz bu sahədə əldə edə biləcəyi hər hansı bir təcrübəni digər universitetlərlə də bölüşmək imkanı qazanır ki, bu da Bakı Dövlət Universitetinin hər sahədə öncül olmasını bir daha təsdiq etmiş olur.

Novruz Nuriyev
İlahiyyat fakültəsinin III kurs tələbəsi

Tələbəlik buluddan asılı qalmış yağış kimidir...

Tələbəlik gözəldir, vaxtında qədrini bilsən!

Tələbə həyatının şirinliyini ömründə bircə dəfə də olsa, dadmış kimdən (fərqi yoxdur hansı peşənin sahibidir) soruşsan: "Tələbəlik" nədir?" - cavabı aksioma kimi belə verirlər: "Tələbəlik gözəldir, vaxtında qədri bilinsə".

Yaşımızın üç qatı qədər həyat təcrübəsi olan bir professorumuz demişdi ki, yenidən "o illərə" qayıtmaq üçün bütün var-dövlətimdən keçməyə hazıram. İnsanı bu cür danışmağa vadar edən nədir, görəsən? Axı dünyagörmüş ziyalını da özünə məftun edən "tələbəliy"in sirri nədədir? Görəsən, biz əlimizdə olan bu "sehrli qüvvə"nin qədrini bilirikmi? Vaxtımızı düzgün dəyərləndiririkmi? Bəlkə də, o professor da bizim kimi vaxtında bunun fərqinə varmayıb. Yox... İnanmıram. O, bu "sehr"dən vaxtında istifadə edə bilməsəydi, professor ola bilməzdi.

Tələbəlik - böyüməkdir, çünki ilk dəfə müstəqil həyata burada başlayırsan, valideynlərinin qədrini bilirsən.

Tələbəlik - dostluğun özü deməkdir.

Tələbəlik - imtahandır: istər bu imtahan kitab oxuyub öyrənməkdən olsun, istərsə də adamları kitab kimi oxumaqdan, fərqi yoxdur, imtahandır, sınaqdır tələbəlik.

Tələbəlik - tapmaqdır, tələbəlik - itirməkdir.

Tələbəlik - neçə illər ürək çırpıntıları ilə çəkdiyimiz hicranın sonu, vüsaldır. Görəsən, bu vüsalın qədrini bilirikmi?

İlk dəfə universitet haqqında təsəvvürüm BDU-da (1 saylı binanın qarşısında) çəkilən şəkillə başladı. Şəkli dil-ədəbiyyat müəllimim çəkmişdi. 5-ci sinifdə oxuyan bir şagird üçün universitet - BDU demək idi. (Bu paralellik hələ də dəyişməz qalır.) Mənim üçün tələbəlik - BDU, burada təhsil almaq - məsuliyyətin özü deməkdir. Bu məsuliyyətin üzərinə bir də "M.C.Paşayev adına adlı təqaüd" almaq əlavə olunarsa, məsuliyyət ikiqat artır.

I kursdan başlayaraq, tələbə hüquqlarından istifadə etdiyin kimi, tələbə olaraq vəzifələrini də yerinə yetirməlisən. Zamanın atan damarını tutmaq lazımdır. XXI əsr təhsil əsridir. Biz necə, XXI əsrin tələbəsi ola bilirikmi? Üzərimizə düşən vəzifələri, millətimiz, gələcəyimiz önündəki məsuliyyəti dərk edirikmi?

Təhsil əsrinin tələbəsi təkcə oxumaqla kifayətlənməməli, universitetdə tələbələr üçün yaradılan imkanlardan (istər maddi-texniki bazadan, istərsə də zəngin elmi-bədii kitabxanalardan) səmərəli istifadə etməklə dünyagörüşünü genişləndirməli, universitetin ictimai işlərində fəal olmalı, tələbə elmi cəmiyyətinin, digər elmi-bədii dərnəklərin keçirdiyi tədbirlərdə, müxtəlif simpozium və konfranslarda iştirak etməlidir. Nəzərə almaq lazımdır ki, sənin səmərəli tədris və ictimai fəaliyyətin təkcə sənin deyil, millətimizin də artan uğurlarına, gələcək rifahına hesablanmış bir fəaliyyətdir. XXI əsr potensial imkanları geniş olan, ixtisası ilə yanaşı hər hansı xarici dili mükəmməl bilən, müasir texnologiyanı dəyərləndirmək bacarığına malik tələbə əsridir. Deməli, səmərəli təşkil olunmuş tədris fəaliyyəti ilə birləşəndə tələbəlik - uğur deməkdir.

Tələbəlik buluddan asılı qalmış yağış kimidir. Gec-tez yağacaq və həyatımızın keçmişinə axacaq, xatirələrə çevrilib yaddaşımıza hopacaq.

Əziz tələbələr, gəlin bu illəri elə yaşayaq ki, yağanda leysan kimi yağaq, xatirələrimiz susuz qalmasın!

Əliyeva Aygün
filologiya fakültəsi, IV kurs

"Ölümdən güclü"

XX əsrin dahi rus yazıçılarından biri olan İ.A.Kuprinin bu günlərdə oxuduğum "Ölümdən güclü" adlı əsəri ilə bağlı təəssüratlarımı paylaşmaq istərdim. Bu dörd vərəqdən ibarət kiçik əsərdə o qədər böyük, o qədər həyati məsələlərə toxunulub ki, əsəri oxuyarkən göz yaşlarımı saxlaya bilmədim. Əsərin hər kəlməsində həyat həqiqətlərini görmək olar.

...Bir cütlük üç illik evlilik həyatından sonra ayrılmaq qərarına gəlir. Əslində bu, ailəni idarə edən şəxsin, yəni bəyin qərarı olur. Xanımı onu, bəy isə öz azadlığını çox sevirdi. Sonuncu dəfə vidalaşanda xanımı ondan yalnız bir şey istədi - saat 12-də onu xatırlamasını. Zavallı, gözləri yaşla dolu, boynubükük qadın. Bəy isə öz növbəsində laqeydcəsinə gülümsəyərək onunla razılaşdı. Bu xatırlamanın səbəbini soruşanda qadın: "Mən də həmin an, həmin saniyə bütün varlığımla sənin haqqında düşünəcəyəm, bəlkə, nə vaxtsa, yenə görüşdük", - cavabını verdi. Sağollaşıb, iki yad insan kimi ayrıldılar...

Qatarda oturub yola baxa-baxa düşüncəyə dalan bəy birdən azadlıq hissinin ona verdiyi həzzin daha əvvəlki kimi olmadığını hiss etdi. Qadını yenidən görmək istəyi baş qaldırdı. Tərk etdiyi qadını yenidən görmək üçün həyatında hər şeydən, hətta azadlığından, qürurundan da vaz keçməyə hazır idi.

Bu düşüncələr içərisində kiçik kupedə yuxuya getmişdi. Birdən dərin yuxudan sonra oyanmiş kimi gözlərini açdı və qarşısında - qatar dayanacağında öz azadlığına görə tərk etdiyi qadını gördü. Ağ libasda idi, sevgi dolu qəmli gözlərlə ona baxırdı. Ayrıldığı xanımı ağ libasda görüb çox qorxdu, ona yaxınlaşmaq istədi, lakin qadın gözdən itdi...

Səhəri gün xəbər yayıldı ki, qadın onların ayrılığından sonra, saat 12-də özünə qəsd edib...

Bu əsəri sizlərlə paylaşmaqda məqsədim sevdiklərimizin, bizi sevənlərin qədrini vaxtında bilməyin əhəmiyyətini, onlar həyatdan köçəndən sonra yox, sağlıqlarında onların qəlblərini qırmamaq gərəkdiyini bir daha diqqətinizə çatdırmaqdır. Tanrının olduğu qəlbi qırmağın necə böyük günah olduğunu hamımız çox yaxşı bilirik. Sözügedən əsərdəki bəy kimi, "Sevgidə qaçış bəzən qələbədir" aforizminə tutunmayaq. Çünku hara qaçsaq da, kimdən qaçsaq da, vicdanımızdan və qəlbimizdən qaça bilməyəcəyik! Gəlin çıxış yolunu qaçışda görməyək! Bağışlamağı,ətrafimızdakıları sevməyi, onlara hörmət etməyi bacaraq ki, bizi də bağışlayıb, dəyər verib sevsinlər. Unutmayaq ki, insanı gözəlləşdirən onun əməlləridir!..

Həsənova Könül
filologiya fakültəsinin III kurs tələbəsi

“Kitablarımı kompyuterdə özüm yazıb, çapa hazırlayıram”

“İndiki tələbələrdə Qərbə meyillilik daha güclüdür”

Lalə xanım

“TƏLƏBƏLİK İLLƏRİMİN ƏN MARAQLI ANLARI EKSPEDİSİYALARLA BAĞLI OLUB”

- Lalə xanım orta məktəb illərini necə xatırlayır...

- Mən 134 nömrəli orta məktəbdə oxumuşam. Məktəbdə nümunəvi şagird idim.

- Məktəb illərinizdə dərsdən qaçdığınız heç olubmu?

- Səmimi olaraq etiraf edim ki, hərdən dərsdən qaçırdım. Sanki dərsdən qaçmağım daxili azadlığımdan irəli gəlirdi. Hərdən fikirləşirdim ki, qoy dərsdən qaçım, gələcəkdə xatırlamağa bir şey olsun.

- Lalə xanım, yəqin ki, kəs üçün bir universitet müəlliməsinin tələbəlik illərini necə xatırlaması maraqlı olardı. O illər yaddaşınızda necə qalıb?

- Mənim tələbəlik həyatım daha çox elmlə bağlı olub. Birinci kursdan başlayaraq, mən dialektoloci ekspedisiyalara gedirdim. Mən rus bölməsini bitirmişəm. Ona görə də Azərbaycan ərazisində rus ləhcələrini araşdırmaqla məşğul olurdum. Bildiyimiz kimi, XIX əsrin birinci yarısında rus çariçası Yekaterinanın əmri ilə Azərbaycanda rus kəndləri salınmışdır. Həmin kəndlərin əhalisinin ləhcələrinin öyrənilməsinin çox böyük elmi əhəmiyyəti var idi. Tələbə yoldaşlarımla və elmi rəhbərimizlə birlikdə hər yay bu ərazilərə səfərlər edirdik. Demək olar ki, mən nəinki tələbəlik illərində, bütün həyatım boyu rus ləhcələrinin araşdırılması ilə məşğul olmuşam. Sonra həmin araşdırmalarımı lüğət şəklində çap da elədim. Fikirləşirəm ki, tələbəlik illərimin ən maraqlı anları elə bu ekspedisiyalarla bağlı olub. Mənim bu gün elmin müxtəlif sahələri ilə məşğul olan xeyli qrup yoldaşlarım da var.

- Bəs müəllimlərinizi necə, xatırlayırsınızmı?

- Azərbaycanın böyük rusçusu, professor Məmməd Tağıyev, sevimli müəllimim professor Heydər Aslanov bu gün dünyalarını dəyişsələr də, həmişə mənim xatirimdədirlər. Onlar Azərbaycanın ən görkəmli alimlərindəndir. Onların elmi fəaliyyətləri, məqalələri nəinki ölkəmizdə, hətta sərhədlərimizdən kənarda da tanınır. Bax bu cür müəllimlərim olub mənim. Əlbəttə, onları unuda bilmərəm, həmişə sevgi hissi ilə xatırlayıram.

“İNDİKİ TƏLƏBƏLƏR DƏYƏRLİ MƏQAMLARIN, VAXTIN QƏDRİNİ BİLMİRLƏR”

- Siz həm tələbə olmusunuz, həm də müəllimə. O vaxtkı tələbələrlə indiki tələbələr arasında hansısa fərq hiss edirsinizmi?

- Düzünü deyim ki, indiki tələbələri bəzən başa düşə bilmirəm. Bunu daha çox onunla əlaqələndirirəm ki, dövr dəyişib, zaman başqa zamandır. Mənə elə gəlir ki, indiki tələbələr dəyərli məqamların, vaxtın qədrini bilmirlər. Amma o vaxt tələbələr öz işlərinə daha məsuliyyətlə, daha ciddi yanaşırdılar. O vaxt tələbəliyin qədrini daha çox bilirdilər. Qəribədir ki, indi tələbələr bunu nə bilirlər, nə də bilmək istəyirlər. İndiki tələbələrdə Qərbə meyillilik daha güclüdür. O vaxtın tələbələri arasında bir-birlərinə inam var idi, dayaq var idi. Ancaq indiki tələbələr arasında bu cür münasibəti görmürəm. Biz tələbə olanda çox mehriban idik, bir-birimizə “qardaş”, “bacı” deyirdik. Mən istəyirəm ki, indiki tələbələr arasında da belə, mehriban, isti münasibət olsun. Bizim nəsil müəllimləri, yəni tələbələr arasında tərbiyə, mədəniyyət, adi əxlaq normaları daha güclü idi. Biz hər şeyimizə: oturuşumuza, duruşumuza, geyimimizə, müəllimlərimizə qarşı münasibətimizə çox ciddi fikir verirdik. Mənim aləmimdə tələbə tərbiyəli olmalıdır. İndi də dərslərimdə tələbələrin tərbiyəsinə çox əhəmiyyət verirəm. Əvvəllər yaşlı insan otağa daxil olanda cavanlar ayağa qalxardı. İndi bu ənənə yaddan çıxıb. Əvvəllər müəllim auditoriyaya daxil olanda tələbələr ayağa qalxardı. O vaxtın tələbələri çox oxuyurdular. Elə gün olmurdu ki, kitabxanaya getməyək. Ancaq bu ənənə get-gedə unudulur. Bəlkə də, dövr, zaman dəyişir, bu, ona görədir. İndi internet var və çox vaxt tələbələr informasiyanı oradan götürürlər.

“MƏN RİYAZİYYATÇI DA OLA BİLƏRDİM, KİMYAÇI DA, FİZİK DƏ...”

- Lalə müəllimə, bu sahədə fəaliyyət göstərməyiniz öz arzunuz idi, yoxsa təsadüfən buraya düşmüsünüz?

- Sizə deyim ki, mən orta məktəbi çox yüksək nəticələrlə bitirmişəm. Ona görə də seçəcəyim ixtisasın mənim üçün fərqi yox idi. Həmişə hər sahədə özümü göstərməyə çalışmışam. Mən riyaziyyatçı da ola bilərdim, kimyaçı da, fizik də... Çünki mən orta məktəbdə bunların hamısını yaxşı oxumuşam. Ancaq tale elə gətirdi ki, mən dilçi oldum. Mənim yaxın bir rəfiqəm var, gördüm ki, o, dilçilik sahəsinə üz tutub. Onunla bir yerdə olmaq üçün mən də bu sahəni seçdim.

- Sizin universitetdə müəllim kimi fəaliyyət göstərməyinizdə yaxından köməklik edən hər hansı bir müəlliminiz olubmu?

- Orta məktəbdə olduğu kimi, ali məktəbdə də dərslərimi çox yaxşı oxumuşam. Əlaçı idim. Ona görə də elmi şuranın qərarı ilə məni kafedrada saxladılar. Əlbəttə, müəllimlərim məni yaxşı tanıyırdılar.

- Tələbələriniz ümidlərinizi doğruldublarmı?

- Mənim tələbələrim var ki, indi ölkədə tanınmış alimlərdir. Slavyan Universitetində prorektor Mamed Əliyev, kafedra müdiri Aslan Məmmədli və s. İndi də tələbələrimin arasında belələrini görürəm. Onların gələcəyinə çox böyük ümidim var.

- Lalə xanım, elə olubmu ki, hansısa tələbənin bir sualı qarşısında çətin vəziyyətdə qalmısınız?

- İnsan hər şeyi bilə bilməz. Tələbələrimə də həmişə belə deyirəm. Sokrat deyir ki, mən bircə onu bilirəm ki, heç nə bilmirəm. Mən öz ixtisasımı dərindən bilirəm. Ancaq bilmədiyim nə isə də ola bilər. Çətinliyə düşəndə elə vaxt olur ki, lüğətlərdən istifadə edirəm. Tələbələrimə də lüğətlərlə tez-tez işləməyi məsləhət görürəm. Bilməmək eyib deyil, öyrənməmək eyibdir.

“İNTERNET MƏNİM ÜÇÜN BİR DÜNYADIR”

- Bildiyimiz kimi, yeni dünyanın ən böyük ixtiralarından olan internet şəbəkəsi get-gedə sürətlə genişlənir. Tələbələr artıq mühazirələri, dərs vəsaitlərini bu yolla əldə edirlər. Bəs Siz necə, bir qədər yaşlı nəslin nümayəndəsi olaraq, bu proseslə ayaqlaşa bilirsinizmi?

- İnternet mənim üçün bir dünyadır, bir möcüzədir. Mən hər dəfə kompyuterin qarşısında oturanda bunu yaradan insanlara dua edirəm. Mən internetdən geniş istifadə edirəm. Kitablarımı kompyuterdə özüm yazıb, çapa hazırlayıram. İstəyirəm, tələbələr də internetdən geniş istifadə etsinlər: bu yolla dünya ədəbiyyatı ilə, elmi əsərlərlə yaxından tanış olmaq mümkündür.

- Heç tərcüməçiliklə məşğul olmusunuz?

- Yox. Çünki Azərbaycan dilini tərcümə edəcək qədər yüksək dərəcədə bilmirəm.

- Elmi fəaliyyətinizlə bağlı hansı xarici ölkələrdə olmusunuz?

- 1972-ci ildən etibarən mən beynəlxalq anomastik konqreslərdə iştirak etmişəm. 1972-ci ildə Sofiyada, 1975-ci ildə İsveçrədə, 1978-cu ildə Polşada, 1993-cü ildə Almaniyada, 1996-cı ildə İrlandiyada, 2005-ci ildə İtaliyada keçirilən elmi konfranslarda iştirak etmişəm. İndi də bir çox ölkələrdən dəvət alıram. Ancaq maddi problemlər səbəbindən gedə bilmirəm.

- Lalə xanım, ədəbiyyata bağlı insansınız. Bəs ən çox sevdiyiniz yazıçı kimdir?

- Paula Kuelyonun “Beşinci dağ” əsərini çox xoşlayıram. Onun bir fikri də var: “Əgər siz nəyisə çox istəyirsinizsə, bütün kainat sizə kömək edəcək”. Rus klassiklərinin əsərlərini çox oxuyuram: Bunin, Nobokov və b.

- Hobbiniz nədir?

- Nəvələrimlə oynamaq, onlarla məşğul olmaq, iç dünyalarına daxil olmaq, onları başa düşmək, anlamaq mənim hobbimdir.

- Ciddi, yoxsa mülayim insansınız?

- Çox mülayim insanam. Ailədə də, universitetdə də, kafedrada da hər kəslə mehriban, xoş rəftar etməyə çalışıram. Bütün tanıdığım insanlarla, iş yoldaşlarımla, qonşularımla çox səmimi münasibətim var.

- Neçə övladınız var?

- İki qızım var. Biri həkim, digəri filoloqdur. Hər ikisi ailəlidir. Övladlarımdan çox razıyam. Nəvələrim də var: bir oğlan, bir qız.

- Musiqi dinləməyə, teatra, kinoya getməyə necə, vaxt tapırsınızmı?

- Bəli. Ən çox klassik musiqiləri dinləməyi xoşlayıram. Bethoveni, Şopeni çox dinləyirəm. Qara Qarayevin, Fikrət Əmirovun, Üzeyir Hacıbəyovun musiqi ruhu mənə çox yaxındır. Ancaq son vaxtlar teatra tez-tez getmirəm. Vaxt çatdıra bilmirəm. Sonuncu dəfə “Üns” teatrına getmişəm. Amma muzeylərə, sərgilərə gedirəm.

- Ailədə ən çox önəm verdiyiniz prinsiplər nədir?

- Yoldaşımla elə yaşdayıq ki, artıq mübahisə edən vaxtımız deyil. Bir-birimizə çox böyük hörmət edirik, başa düşürük. Hər şey hörmətlə, sevgiylə olsa, heç vaxt mübahisə də yaranmaz.

- Neçə ildir ki, BDU-da çalışırsınız?

- Düz 40 ildir ki, BDU-da çalışıram. Elə bu səbəbdən də universitet mənim üçün çox doğmadır. Hər halda ömrünün 40 ilini universitetə həsr etmiş insan üçün bu, təbii haldır.

Peşəkar mütəxəssislər "3"-"4" qiymət alan tələbələrin arasından çıxır

Pərvin Darabadi: "Yaş ötdükcə dostlar da azalır"

Professor, tarix elmləri doktoru, politoloq, müəllim Pərvin Darabadi çoxşaxəli fəaliyyəti ilə elm, təhsil sahəsində xidmətlər göstərir. O, 160 məqalə, 3 monoqrafiya, 1 dərslik, 7 proqram və tədris vəsaitlərinin müəllifidir. Pərvin müəllim bu fəaliyyəti ilə elmi nailiyyətlər əldə etsə də, onu tələbələrin gözündə ucaldan və sevdirən onlara göstərdiyi səmimi münasibət, qayğıkeş rəftar və özünəməxsus nitq tərzi olub. Bu müsahibəmizdə Pərvin Darabadinin həyatı, fəaliyyəti barədə tələbələrin eşitmədiyi çox maraqlı məqamlara toxunmuşuq.

- Pərvin müəllim, eşitdiyimizə görə, Siz Bakı şəhərindəki 1 saylı məktəbdə təhsil almısınız. İstərdik ki, uşaqlıq xatirələrinizi bizimlə bölüşəsiniz...

- Uşaqlıq illəri deyəndə mən ilk öncə köhnə Bakını yadıma salıram. Köhnə Bakı bizim üçün şəhərin mərkəzi idi, ayağı yalın, başı açıq qaçardıq, şəhər hovuzlarında çimərdik. Hələ məktəbə getmirdim. Tək mən yox, elə bütün şəhər uşaqları, hamımız birlikdə şəhərin mərkəzinə qaçırdıq, küçələrə çıxırdıq, o zamanlar maşınlar da elə çox deyildi. Sahil bağına gedər, oradakı hovuzda çimərdik. Hər dəfə də ətrafda olan nəzarətçilər bizi qovardı. Məktəb illəri də xatirələrlə doludur. Yeddinci sinifdən başlayaraq, mən tarixlə maraqlandım, elə ləqəbim də "Tarixçi" olub. Hansısa bir tədbirdə tarixi sual olan kimi uşaqlar mənə müraciət edərdilər. Yuxarı siniflərdə oxuyanda arxeologiya ilə çox maraqlanırdım və Tarix İnstitutunun arxeoloci ekspedisiyaları ilə Azərbaycanın bir sıra rayonlarında qazıntılarda iştirak edirdim.

- Qazıntılar zamanı ən qədim tapıntınız nə olub?

- Əslində, bizim tapıntılarımız qablar, muncuqlar, kərpic sobalar, silahlar olurdu. Əsasən, bu, eramızdan əvvəl I əsrlərə təsadüf edirdi. Biz Abşeronda qazıntılarda iştirak etmişik. Bu qazıntılardan mənimçün ən yadda qalan Qız qalası ətrafında 1962-ci ildə iştirak etdiyim qazıntılar zamanı tapılmış çıxışı olmayan quyu olub. İndi Karvansaray dediyimiz yer əvvəllər torpağın altında idi. Oranın qazıntısında mən də iştirak etmişəm. Oradakı meydanda çoxlu sayda skelet tapılmışdı: bəlkə də, əvvəllər ora qəbiristanlıq olub. Həmçinin də XIX əsrə aid şüşələr, müxtəlif boşqablar... Nə qədər çox qazıntı aparsan, qədimə bir o qədər yaxınlaşırsan.

- Demək olar ki, Sizin üçün ən sevimli fənn tarix olub?

- Bəli. Dəqiq elmlərdən çox zəif idim. Amma tarixdən, ədəbiyyatdan "əla" qiymətlər alırdım. Hətta yaşıma uyğun olmayan kitablar oxuyurdum. Məsələn, Lavis və Rambonun 8 cilddən ibarət "XIX əsrin tarixi"ni demək olar ki, əzbərləmişdim. Əlimə nə keçsə, oxuyurdum. Bu cür mütaliənin mənə 1965-ci ildə, tarix fakültəsinə qəbul olunanda çox köməyi oldu.

- Dostlarınız necə, çox olub?

- Dostluğa çox dəyər verirəm. Mənim bir dostum var: Tofiq. Bu il onunla dostluğumuzun 50 illiyini qeyd etdik. Qalan dostlarla da bəzən görüşürük, bəziləri köçüblər, bəziləri rəhmətə gedib. Amma yaş ötdükcə dostlar da azalır: cavanlıqda yüzlərlə dost varkən illər ötdükcə əvvəlcə bu rəqəm onluqlarla əvəz olunur, sonra beş-altı, nəhayət... iki-üç nəfər, hələ o da olsa, böyük şeydir. Həyatın qanunu belədir.

- Məktəb illərində hobbiniz nə olub?

- İdman. Hamımız idmanla məşğul olurduq. Mən qılınc oynatma ilə məşğul olurdum, dərəcəm də var idi. Bir zamanlar at çapmaqla da maraqlanırdım.

- Siz uşaqlıqdan özünüzü tarixçi-professor kimi görürdünüz, yoxsa bu fikir sonralar yarandı?

- Bilirsiniz, o vaxtlar heç professorluq barədə düşünmür, buna əlçatmaz zirvə kimi baxırdıq. Bizə görkəmli professorlar dərs deyiblər: Ə.Sümbətzadə, İ.Hüseynov və b. Onlar bizim üçün əlçatmaz bir zirvə idi, heç fikirləşmirdik ki, nə vaxtsa onlara çata bilərik. Sonralar isə bu oldu mənim peşəm. Universiteti bitirəndən sonra mən Tarix muzeyində aparıcı kimi işlədim, aspiranturaya girdim. Hərbi tarixlə məşğul olmağa başladım - mənim peşəm elə hərbi tarixdir. Son 10-15 ildə isə keçdim geopolitika, konfliktologiyaya. Sizə deyim ki, bütün bunlar birbirilə sıx əlaqədədir, bacı-qardaş kimi.

- Bəs tarixdə kumiriniz olub?

- Məni hərbi tarixə cəlb edən Napoleonun fəaliyyəti olub.1971-ci ildə aspiranturaya daxil olanda hərbi tarixi mövzu kimi götürdüm və sonra düşündüm: "Yaxşı, mən hərbi tarixi öyrənirəm, ancaq silahı necə tuturlar, heç xəbərim yoxdur". Beləliklə, könüllü ordu sıralarına gedib qulluq etdim. Sözsüz ki, bu, mənə çox kömək oldu: tankın, avtomatın, nizam-intizamın nə olduğunu öyrəndim. 1972-ci ildə hərbi xidmətdən qayıtdım,1979-cu ildə namizədlik işimi müdafiə etdim.

- Təhsil və elmlə yanaşı, ailə münasibətləriniz necə olub?

- 30 yaşımda ailə qurmuşam. İndi isə ailəm İsraildə yaşayır, 90-cı illərdən ora köçüblər. Mən İsrailə dəfələrlə getmişəm, ancaq fikrimcə, mənim elmi fəaliyyətim üçün ən uyğun mühit elə Bakıdadır. Bir qızım, bir oğlum var. Qızım İsrail ordusunda qulluğunu bitirib, oğlum da həmçinin. Oğlum indi Hayfa Universitetində humanitar elmlər üzrə bakalavr pilləsində təhsil alır. Qızım isə hələ hansı ixtisası seçəcəyinə qərar verməyib.

- Övladlarınıza, əsasən, necə tövsiyə verirsiniz?

- Mən onlara yalnız oxumağı, elmə, biliyə yiyələnməyi məsləhət görmüşəm. Övladlarım sərbəstdirlər, onlara heç bir təzyiq göstərilmir. Oğlum da tarix ixtisasını seçib, İsraildə təhsil alır.

- Peşəkar tarixçi kimi, oğlunuzun elmi fəaliyyətinə necə qiymət verərdiniz?

- O, hələ oxuyur, bu il bakalavr pilləsini bitirəcək. O da elmə qarşı çox ciddidir.

- Neçənci ildən müəllim kimi çalışırsınız?

- 1975-ci ildən başlayaraq, Azərbaycanın müxtəlif təhsil ocaqlarında Azərbaycan tarixini tədris etmişəm. Demək olar ki, bütün həyatım tarixi araşdırmalarla bağlı olduğu üçün bu dərsləri tədris etmək mənimçün çətin olmayıb. Bakı Dövlət Universitetində isə politologiya, geopolitika və konfliktologiya dərslərini tədris edirəm. Bu fənlərlə bağlı qazandığım biliyə görə isə universitetə borcluyam.

- Tələbələrlə ünsiyyət qurmaq necə, asandır?

- Problem deyil. Aydın məsələdir ki, anlaşılmazlıqlar olur, onsuz olmaz. Tələbələrlə heç zaman prinsip aparmamışam.

- Diplomatik insansınız...

- Dəqiq.

- Bəs nə vaxtsa irəli çəkdirdiyiniz favoritləriniz olubmu?

- Yox, mən heç kəsi irəli çəkməmişəm. Amma həmişə izləmişəm. Elə tələbələr olub ki, onları həvəsləndirmək üçün "sənin gələcəyin parlaqdır"-, demişəm, tələbəni elm və bilik axtarışını davam etməyə bu cür çağırmışam.

- Ümidlərinizi doğruldan tələbələr olub?

- Çox olub. Çoxları xaricdə magistrturada oxuyur, elmi məzuniyyətlərdədir, elmi dərəcə alıblar. Demək olar ki, əksər tələbələrimiz Xarici İşlər Nazirliyində işləyirlər.

- Əminəm ki, onların xatirində də Siz çox hörmətli və sevimli bir professor kimi qalmısınız, tələbələr sizin xatirinizi çox sevirlər...

- Bu, bir az "mübaliğə"dir. Bilirsiniz, mən bir şeyi həmişə vacib hesab etmişəm - peşəkarlığı. Əgər insan öz peşəsinin sahibidirsə, onun heç bir problemi olmaz. Amma bir az zəif olanlar səsini qaldırmağa, əsəbiləşməyə, sözü uzatmağa üstünlük verirlər.

- Xarakterinizi psixoloji baxımdan necə təhlil edərdiniz? Başqa sözlə desək, müsbət və mənfi cəhətləriniz...

- Mənfi... bilirsiniz, məndə liberallıq var. Yəni hərdən həddən artıq liberallıq nümayiş etdirirəm. Çox vaxt mənfi cəhətim tənbəllikdən ibarət olur. Məsələn, bir problem yarananda onu həll etmək əvəzinə, - "yaxşı, qalsın, sonra baxaram", - deyirəm. Amma elə insanlar var ki, bir şeyin sonuna qədər gedirlər, mən isə elə deyiləm. Amma təbii ki, elə prinsiplər olur ki, onlardan qaçmaq olmur, bu, aydın məsələdir. Amma detallarda mən konfliktologiyada olan "3 D" prinsipi ilə hərəkət edirəm - "day doroqu duraku". Bu, mənfi cəhətdir. İnsan gərək bir az prinsipial olsun.

- Həyat deviziniz nədir?

- Nümunə kimi çox sitatlar gətirə bilərəm. Ən əsası, mənim üçün "həyat mübarizədir". Düzünü desəm, həyatın hər bir dövr üçün öz devizi var, situasiyadan asılıdır. Zaman keçdikcə devizlər də dəyişir.

- Heç olub ki, zamanı geri qaytarmaq, hansısa bir günü, saatı yenidən yaşamaq istəmisiniz?

- Dəfələrlə, dəfələrlə... Sözsüz ki, əgər geri qayıda bilsəydim, mənim həyatım, bəlkə də, başqa ssenari üzrə davam edəcəkdi, inkar etmirəm. Həyat belədir, gah yuxarı qalxırsan, gah aşağı düşürsən. Çalışıram ki, bu yüksəliş və enişlər bir az bu stabil olsun. Əslində bütün problemləri insanlar özləri yaradırlar. Elə məqamlar da olub ki, gərək bunu belə etməyəydim demişəm. Aydın məsələdir ki, mən ideal deyiləm.

- İnsanlarla necə münasibətdəsiniz? Bəzi insanlar neytral olur, digərləri ünsiyyətə girməyi sevir, başqaları tənqidi yanaşırlar...

- Əslində, mən özümü birinciyə aid edirəm - neytralam. Allah hamını bərabər yaradib: mən hamıya eyni cür yanaşıram: nə ideallaşdırıram, nə də aşağı qiymət verib biganə münasibət göstərirəm.

- İlham pəriniz nədədir, stimulunuz nədir?

- Bilirsiniz, bu artıq stimul deyil, xəstəlikdir, adı da "elm". Onsuz yaşaya bilmirəm. Bir işi bitirəndə dinc durmuram, başlayıram başqa bir şeyin üzərində işləməyə. Əlbəttə, çoxlu vəzifələr var: inzibati və s. Bütün bunlar müvəqqətidir, amma professor adı ölənə qədərdir. Bu elmi ada insanın özü nail olur: müdafiə edir, mübarizə yolu ilə ad qazanırsan.

- İndiyədək nəyə nail olmusunuz və hansı nailiyyətinizlə fəxr edirsiniz?

- Bilirsiniz, mən həmişə sonuncu nailiyyətlərimi yada salıram, keçmişdə olanlar artıq tarixdir, unudulub gedir. İndi mən fəxr edirəm ki, Moskvada kitabım çıxacaq - "Qafqaz və Xəzər dünya tarixində və XXI əsrin geopolitikasında". Burada Qafqaz və Xəzər regionunda Makedonlu İskəndər dövründən bu günə qədər baş verən bütün hadisələr öz əksini tapıb.

- Sizcə tələbə həmişə əla qiymət almalıdır?

- Mən düşünmürəm ki, tələbə hər zaman əla qiymət almalıdır. Məncə peşəkar mütəxəssislər "3"-"4" qiymət alan tələbələrin arasından çıxır.

- Tələbələrə hansı məsləhətləriniz, tövsiyələriniz var?

- Məsləhət görürəm ki, mümkün qədər çox kitab oxusunlar. Əlbəttə, internet də çox vacibdir, sözsüz, amma kitab tamam başqa şeydir və təəssüf ki, mütaliə indi arxa plana çəkilir. Əldə kitab tutmaq tamamilə başqa bir şeydir: oxuyursan, sonra qayıdırsan ön səhifələrə, özün üçün qeydlər edirsən. Acaq internetdə bunları etmək çətin olur. Bəli, mən də internetdən istifadə edirəm, ancaq elə bizim kitabxanamızdan kitab götürüb, onu əlimdə saxlayanda, rahat, istədiyim tərzdə oxuyanda tamam başqa hisslər keçirirəm.

Söhbətləşdi: **Leyla Nur**

N Ə Ş R L Ə R

Mir Cəlal

Oxuculara təqdim edilən bu kitabın I cildinə Azərbaycan ədəbiyyatının və elminin görkəmli nümayəndəsi, filologiya elmləri doktoru, professor, əməkdar elm xadimi Mir Cəlal Paşayevin "Dirilən adam" romanı və bəzi hekayələri daxil edilmişdir. "Dirilən adam" romanı XX əsrin əvvəllərində Azərbaycanda milli azadlıq hərəkatından, əsərin baş qəhrəmanı Qədirin və onun ailəsinin başına gələn bəlalardan, xalqın acınacaqlı vəziyyətindən bəhs edir. Maraq doğuran odur ki, kiçik janrın tanınmış ustadı olan Mir Cəlal bu kitaba daxil etdiyi hekayələrində sadə adamların həyatını əks etdirən səhnələri çox böyük yumorla göstərir. Kitabda Mir Cəlal yaradıcılığına xas olan fəlsəfi fikirlər, qəhrəmanların fərdi xüsusiyyətləri, zərif, düşünməyə sövq edən "yumor" öz əksini tapır.

II cildə daxil edilən "Bir gəncin manifesti" əsəri Azərbaycan ədəbi irsinin ən gözəl nümunələrindəndir. Əsərin mərkəzi qəhrəmanları: bir ailənin üzvləri olan Mərdan, Sona və Bahar o dövr Azərbaycan kəndlilərinin ümumiləşdirilmiş bədii obrazlarıdır. Romanda parlaq vətənpərvərlik, azadlıq və müstəqillik naminə öz həyatlarından keçənlərin romantik pafoslu obrazları öz əksini tapır. O dövrün qurbanlarından biri olan kiçik Baharın faciəvi ölümü xüsusi ürək ağrısına səbəb olur. Bu cildə Mir Cəlalın 1961-ci ildən həyatının sonlarınadək yazdığı hekayələri, "Lirik miniatürlər"i də daxil edilmişdir. Bu əsərlərdə klassikə xas olan tənqidi gülüşün müxtəlif formaları öz əsini tapır ki, bu da öz növbəsində, oxucuların diqqətini cəlb edir.

III cilddə görkəmli Azərbaycan ədibi Mir Cəlalın 1958-ci ildə yazılmış "Yollar haraya aparır" romanı, "Dağlar dilləndi" povesti, "Fransanın yolları ilə" adlı yol qeydləri və "Bizim böyük müasirimiz" ədəbi məqaləsi daxildir. "Yollar haraya aparır" romanı böyük Azərbaycan satiriki M.Ə.Sabirin mürəkkəb həyat yolunu, zəngin ədəbi irsini işıqlandırır. Romandakı hadisələr 1908-1911-ci illər arasındakı dövrü əhatə edir. Bu dövrdə şairin yaradıcılığı Azərbaycan sərhədlərini aşaraq Türkiyə, İran, Orta Asiya, Tatarıstanda, ümumiyyətlə, "Molla Nəsrəddin" jurnalının tanındığı bütün yerlərdə geniş oxucu populyarlığı qazanmışdı. Əsərdə Azərbaycan üçün ən gərgin bir dövr hesab edilən XX əsrin birinci rübündə dahi şairin yaradıcılıq sınaqlarından əyilmədən, dəyanətlə çıxdığı göstərilir.

"Kimyəvi cərəyan mənbələri və yanacaq elementləri"

Kimya fakültəsinin dosenti Nazim Şəmilov, Aida Əliyeva və Səkinə Mirzəliyevanın birgə müəllifliyi ilə işıq üzü görən "Kimyəvi cərəyan mənbələri və yanacaq elementləri" dərs vəsaiti universitetlərin kimya istiqaməti üzrə magistratura pilləsində tədris olunan "Kimyəvi cərəyan mənbələri və yanacaq elementləri" fənninin proqramına uyğun tərtib olunmuşdur. 7 fəsildən ibarət olan kitab magistrantlar və elmi tədqiqat institutlarının əməkdaşları üçün nəzərdə tutulmuşdur.

"Qaz xromatoqrafiyası"



Magistrlər üçün daha bir dərs vəsaiti işıq üzü görüb. "Qaz xromatoqrafiyası" kitabının müəllifləri kimya fakültəsinin dosenti Nazim Şəmilov, Fuad Kərimli və Elmar Hüseynovdur. Dərs vəsaiti universitetlərin kimya istiqaməti üzrə magistratura pilləsində tədris olunan "Qaz xromatoqrafiyası" fənninin proqramına uyğun tərtib olunmuşdur. Bu kitabda kimyəvi analizdə geniş tətbiq olunan qaz xromatoqrafiyasının nəzəri əsasları, həmçinin bir sıra təcrübi tədqiqatlarda tətbiqinə dair geniş məlumat verilmişdir.

"Tarix şumerlərdən başlanır"



Qədim mixi yazıların sirlərini açan Semuel N.Kramerin dünyada bir neçə dilə tərcümə olunmuş məşhur "Tarix şumerlərdən başlanır" kitabını artıq doğma dilimizdə də oxumaq mümkün olacaq. Kitabxanaçılıq və informasiya fakültəsinin müəllimi Pərviz Kazımının tərcüməsi əsasında ərsəyə gəlmiş "Tarix şumerlərdən başlanır" kitabı bizim eramızdan əvvəl III minillikdə mövcud olmuş qədim şumer şəhəri və onun mədəniyyətindən bəhs edir.

"L.N.Tolstoyun nəsri Azərbaycan dilinə tərcümələrdə"

Dosent Fikrət Rzayevin "L.N.Tolstoyun nəsri Azərbaycan dilinə tərcümələrdə" adlı kitabı L.N.Tolstoyun nəsr əsərlərinin Azərbaycan dilinə tərcümələrinin kompleks şəkildə müqayisəli-üslubi təhlilinə həsr olunmuşdur. Kitab girişdən, beş fəsil və nəticədən ibarətdir. Burada Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfə olaraq, yazıçının Qafqaz mövzusuna həsr olunmuş hekayə və povestlərinin ("Basqın", "Meşənin qırılması", "Qafqaz xatirələrindən", "Qafqaz əsiri", "Kazaklar", "Hacı Murad"), bəzi "problem" povestlərinin ("Lütsern", "Albert", "İvan İliçin ölümü", "Serqi ata") və "Anna Karenina" romanının tərcümələri tədqiqat obyektinə çevrilmişdir.

"Mən Bərdənin, Şamxorun və Şamaxının xarabalıqlarında azırdım"

Dosent Məryəm Yaqubovanın "Mən Bərdənin, Şamxorun və Şamaxının xarabalıqlarında azırdım" monoqrafiyasında A.S.Qriboyedovun Azərbaycan və Azərbaycan ədəbiyyatı ilə bağlı olan həyat və yaradıcılığının bütün aspektləri tədqiq edilmişdir.

Yağış yağır

Yağış yağır, nur ələnir,
göydən yerə səpələnir...
bizə gözəl bir vəd verir:
"Yuyacağam qəm-kədəri,
yaşadacam sevgiləri,
öz nurumla, saflığımla,
narın yağan damcılarla
göylərdən nur gətirəcəm,
ürəklərə ələyəcəm".
Yağ, ey yağış, ələ yerə nur damlalar,
qoy sevinsin sevən kəslər,
qoy canlansın gül-çiçəklər,
yaransın yeni arzular...
Yu apar kin-küdurəti,
yaşat əsl məhəbbəti,
oyat yatmış təbiəti...
Təmizlə bu küçələri,
aydınlığa çıxart
zülmət gecələri,
gətir gözəl bir səhəri.
Sən ki susan,
buludlardan doğulmusan,
demək, safsan...
Oysa saflat insanları,
varsa əgər üzlərində,
yu apar o maskaları...
Hər kəs öz halında gözəl,
hər şey öz dadında özəl...
Süniliyi sən yu apar,
səmimi olsun insanlar,
doğulsun yeni duyğular...
Sən hər qəlbə o ilahi
səmalardan nur səpələ.
Sən yağışsan,
bəzən yaman bərk yağırsan...
Yolda maşınlar şütüyür,
Göydə təyyarələr ötür.
Sən onları heç azdırma,
yollarını qarışdırma.
Qoy olmasın peşmançılıq,
doğmasın nigarançılıq.
Hər kəs evinə yetişsin,
hər gününə şükr etsin,
üzərində nur gətirsin.
Sənin nurun...
Qoy evlərə sevinc versin,
üzlərə gülüş bəxş etsin.

Güney Mahmudova,
Jurnalistika fakültəsinin magistrantı

Ayrılıq

(Nənəmə ithaf edirəm)

Bilmədim, bu an da bir anda keçdi,
Ən böyük Allahım tək onu seçdi.
Saxladı zamanı, durdurdu vaxtı,
Bir qara parça da qapımdan asdı.

Söz danış, qorxutma, dön sən həyata,
Həm nənəm olmusan, həm anam-atam.
Dön, qayıt, göstər ki, var hələ gücün,
Harada saxlatdı ömür sürücün?

Otağın bomboşdur, havalar sərin,
Qulaqda sırğamdır möhtərəm səsin.
?ndi tək yatırsan, kimdir yanında?
Kaş ki mən olaydım isti qoynunda...

Leyla Nur

Azərbaycan qəhrəmanlıq salnaməsinin parlaq simaları silsiləsindən:

Laçınlı Sultan bəy

Xalqının qüdrəti üçün çalışan, onu mühafizə edən, milli-mənəvi dəyərlərin qorunmasında danılmaz əməyi olan hər bir şəxs qəhrəmanlıq zirvəsinə ucalmağa layiqdir. Tarixən bu zirvəni fəth edən böyük şəxsiyyətlər olub. Belə şəxsiyyətlərdən biri də Sultan bəydir.

1871-ci ildə Zəngəzur qəzasının Hacısamlı nahiyəsinin Qasımuşağı obasında (hazırkı Laçın bölgəsinin Kürdhacı kəndində) Əlipaşa bəyin ocağında bir oğlan uşağı dünyaya göz açdı. Adqoyma mərasimində ağsaqqallar belə məsləhət gördülər ki, ata ad qoysa, daha xeyirli olar. Əlipaşa bəy oğluna ana babası Əsəd sultanın adını verdi. Getgedə uşağın adındakı Əsəd unudulub, Sultan qaldı. Hamı onu Sultan bəy çağırırdı.

Əlipaşa bəy obalarının savadlı adamı Molla Xudaverdi Tanrıverdi oğlunu çağırıb, balaca Sultana dərs verməsini tapşırdı. Bir neçə il Molla Xudaverdidən dərs aldı. Sonra atası onu Şuşa şəhərindəki qəza məktəbinə göndərdi. Qəza məktəbində, sonra Gəncə şəhərində gimnaziyada oxudu. Orta təhsilini tamamlayıb Sankt-Peterburq şəhərinə yollandı. O dövrün ən ünlü hərbi məktəbi olan Sankt-Peterburq Hərbi Akademiyasına daxil oldu. O, bu təhsil ocağında təhsilini başa vura bilmədi. Bunun bir neçə səbəbi var idi. Əsas səbəb kimi onun qiymət üstündə müəllimlə mübahisəsi göstərilir, çünki Akademiyanın müəllimləri yüksək çinli zabitlər, müdavimlər isə əsgər sayılırdılar. Əsgərin zabit üzünə qayıtması böyük suç sayılırdı.

Hərbi təhsili yarımçıq qoyan Sultan bəy doğma Qasımuşağı obasına qayıdır və əmək fəaliyyətinə başlayır. Öncə maldarlıqla, sonra qoyunçuluq və meşəçiliklə məşğul olur. Yaylaqlarda sağılmış süd ona məxsus olan Kürdhacı yağ-pendir zavoduna dağların döşü ilə saxsı borularla axıdılırmış. İsveçrədən yeni mal cinsini Azərbaycana ilk dəfə Sultan bəy gətirtmişdir.

Sultan bəyin milli qəhrəmana çevrilməsi 1905-ci il hadisələri, erməni olayları ilə bağlıdır. Müsəlmanlara, türklərə nifrət edən ermənilər çar məmurlarının dəstəyi ilə qanlı qırğınlara başlayırlar. Bu zaman ermənilərə qarşı mübarizəyə başlayan Sultanovlara Əlipaşa bəy başçılıq edirdi. Nəinki Zəngəzur, hətta Şuşa şəhərini də müdafiə edən Əlipaşa bəyə böyük oğlu Sultan bəy də kömək edirdi. Məşhur tarixçi və təzkirəçi Mir Möhsün Nəvvab "1905-1906-ci illərdə erməni-müsəlman davası" adlı əsərində Əlipaşa bəy Xanmurad bəy oğlunun və dəstəsinin erməni quldurlarına qarşı mübarizəsindən danışır.

Atasının şərəfli yolunu davam etdirən Sultan bəy Zəngəzurda erməni daşnaklarının törətdiyi bir çox qırğının qarşısını ala bilir. Mükəmməl hərbi biliyə yiyələnmiş Sultan bəy "Dağlarda tufan", "Güllə ətdən keçib, ətdə soyumalı", "Zərbə dalınca zərbə", "Nalşəkilli mühasirə", "Üçbucaq", "Güllədən leysan" kimi hərbi taktiki nəzəriyyələrdən daşnakların Zəngəzurda məhv edilməsi əməliyyatında çox böyük ustalıqla istifadə etmişdir. O, bu taktikalarla tat qırğınının qarşısını almış, Qaragöl döyüşü, Sahil əməliyyatı və s. bu kimi uğurlu nəticələr əldə etmişdir.

Sultan bəyin qəhrəmanlığının ikinci hissəsi 1918-ci il hadisələri ilə bağlıdır. Xalq Cümhuriyyəti yaradıldıqdan sonra ermənilərin düşmənçilik siyasəti daha da gücləndi. Qarabağ və Zəngəzuru mənimsəmək üçün ərazi iddiaları onların törətdikləri kütləvi qırğınlarla müşahidə olunmağa başladı. Bu qırğınlar Laçın bölgəsinin bütün ərazilərində daim müşahidə olunurdu. Bu zaman türk ordusunun sirlərini ingilis kəşfiyyatına satmaq üstündə qulağı kəsiləndən sonra İrəvana gəlmiş Andronik Uzunyan erməni ordusunun komandanı idi. Andronik nə yolla olursa olsun, öz silahlı qüvvələri ilə bərabər Gorus, Laçın, Şuşa istiqamətindən Qarabağa daxil olmaq, onun erməni əhalisini Azərbaycan hökumətinə qarşı qaldırmaq, təxribatlar törətmək və ölkədə itaətsizlik yaratmaq istəyirdi. Bu məqsədlə o, bir neçə minlik ordu ilə Zabux kəndini keçərək Laçın istiqamətində irəliləməyə başladı. Məsələdən əvvəlcədən xəbər tutan Sultan bəy öz partizan dəstəsi ilə Laçın-Zabux yolundakı dərədə pusqu quraraq Andronikin qoşununu mühasirəyə aldı. Bir gün davam edən qanlı döyüşdə erməni qüvvələri məhv edildi. Döyüşdən sonra bu dərə "Qanlı dərə" adlandırıldı.

Zabux dərəsində məğlub olduğunu və həyatının təhlükədə olduğunu görən Andronik əyninə çuxa geyərək iki uşaqla qaçarkən döyüş yerinə gələn Sultan bəylə və onu müşahidə edənlərlə qəflətən qarşılaşır. Tələyə düşdüyünü görən Andronik erməni xislətinə uyğun yalvarmağa başlayır. Sultan bəy gülümsər halda yarı zarafat, ayaqlarını aralı qoyub deyir: "Gəl keç". Andronik əyilib Sultan bəyin qılçasının arasından keçir.

Sultan bəy sonradan bilir ki, o, Andronik imiş. Onu gətirmək üçün dalınca atlılar gedəndə Bəy onları getməyə qoymayıb deyir: "Oğul, oğul, getməyin, onun qulağını türklər kəsmiş, mənimsə qılçamın arasından keçmişdir. O, Azərbaycana heç nə eləyə bilməz".

Bu qələbə nəticəsində Andronokin Qarabağı, sonra isə Gəncəni tutaraq S.Şaumyanın rus-erməni hərbi hissələri ilə birləşmək, Şimali Azərbaycanda erməni hakimiyyətini gerçəkləşdirmək planı məhv oldu.

1920-ci ildə Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycan bəyləri öz Vətənindən qaçaq düşdü. Vəziyyətin mürəkkəbliyini görən Sultan bəy Azərbaycan İnqilab Komitəsinə müraciət edir. Ümidverici cavab almadığına görə İran şahına üz tutur. İran da Sultan bəyə təhlükəsiz həyat şəraitini təmin edə bilmədiyi üçün Türkiyə dövlətinə müraciət etməyi məsləhət görür. 1923-cü ildə Türkiyə dövlətinə müraciət etdikdə hər iki qardaşı: Sultan bəylə Xosrov bəyi rəsmi keçidlə qarşılayıb Qars vilayətinin Köçqoy kəndində mülk və malikanə verərək təhlükəsiz həyat şəraiti ilə təmin edirlər.

Vətəndən didərgin düşmək qismәti Sultan bəyin ailəsindən də yan keçməmişdi. Vətən naminə fədakarlıq etmiş bu ailə doğma vətənində rahat yaşamamışdır. Həyat yoldaşı ilə qızı Sibirə sürgün edilmişdir.

Məşəqqətli həyat yaşayan xanım Vətənə qayıtmaq üçün 1948-ci ildə Mir Jəfər Bağırovla görüşür. Bu zaman Bağırov Sultan bəyin həyat yoldaşına deyir ki, Sultan bəyin nəslinin bir daha Azərbaycan torpağına ayaq qoymağına icazə verilməyəcək. Buna cavab olaraq Sultan bəyin həyat yoldaşı qəbuldakıların yanında Bağırova deyir: "Sultan bəy xalqının qəhrəman oğludur. O, Zəngəzurda xalqımızı daşnaklardan xilas etmişdir. Tarix bunu heç vaxt unutmayacaq, amma siz bu gün Azərbaycan xalqını sürgünlərdə məhv edən xalq cəlladı kimi, vaxt gələcək, xalq qarşısında cavab verməli olacaqsınız!" Bunu deyən xanım, görünür, həm uzaqgörən, həm də diplomat qadın olub. Əbəs yerə deyildi ki, Sultan bəyin yoldaşı sürgündən əvvəl bir müddət Bakı Şəhər Sovetinin deputatı olmuşdur. Görüşün nəticəsiz olduğunu görən xanım Qazaxıstana qayıdır və 1956-cı ilə qədər sürgün həyatı yaşayır. 1956-cı ildə Vətənə qayıdan Sultan bəyin yoldaşının gəlişi M.Bağırovun məhkəməsinə təsadüf etdi. Xanımı məhkəməyə dəvət etsələr də, özünə məlum olan səbəblərə görə məhkəməyə getmir. Bu tarixi məqam ədalətin qələbəsi, qəhrəmanlığın təzahürüdür.

Şanlı tariximizin ayrılmaz tərkib hissəsi olan Sultan bəy və onun qəhrəmanlığı bugünkü və gələcək nəsillərin vətəpərvərlik ruhunda böyüməsinə töhfə verəcək şərəfli səhifələrdəndir.

Ölməz şəxsiyyət 1955-ci ildə Qars ətrafında Köçqoy kəndində vəfat etmiş və orada da dəfn olunmuşdur. Bu şəxsiyyətin cismani varlığını hiss etməsək də, adı xalqın mənəvi yaddaşında əbədi olaraq kök salmışdır.

BİLİRSİNİZMİ?

Gurultulu mühitdə daha tez müvəffəqiyyət qazanmaq olur

İsveçdə aparılan araşdırma zamanı məlum olub ki, gurultulu mühit uşaqların daha yaxşı öyrənməsinə kömək edir. İsveçli araşdırmaçılar bildiriblər ki, bir az səsküy diqqət problemi olan uşaqlarda diqqəti artırır.

Məktəblərin birində aparılan təcrübələrdə uşaqlara gurultulu və səssiz mühitlərdə bəzi cümlələr dinlədilib və sonra onlara bunları təkrarlamaq tapşırılıb. Məlum olub ki, uşaqlar gurultulu mühitdə dinlədikləri cümlələri daha yaxşı qəbul edib və yadda saxlayıblar.

Bundan sonra siniflərdə "Səssiz olun" xəbərdarlığının tarixdə qalacağını bildirən mütəxəssislər beyin hüceyrələrinin öyrənmə əsnasında kifayət dərəcədə xəbərdar edilməyə ehtiyacı olduğunu, mühitə bir az səs-küy əlavə olunduğu zaman beyin hüceyrələri arasındakı əlaqənin asanlaşdığını, bu səbəbdən də diqqətin artdığını qeyd ediblər.

Aclıq və susuzluq haqqında bilmədikləriniz

Səhər nahar etmədiyinizi və günorta da yemək yemədiyinizi düşünün... Böyük ehtimalla, günortaya doğru mədəniz zəng çalmağa başlayacaq. Daha sonra başınız fırlanacaq, ürəyiniz bulanacaq... Artıq gözünüz saatdan başqa bir şey görməyəcək. Bəli, bu, aclıqdır. Bəs görəsən, ümumiyyətlə, yemədən-içmədən insan hansı vəziyyətlərə düşür və neçə gün yaşaya bilər?

Yeməksiz həyat

Həftələrlə yemək yemədən yaşayan bir çox insana rast gələ bilərsiniz. Məsələn, Qandi 70 yaşında ikən 21 gün heç nə şey yeməsə də keçinmişdi. Vəhşi təbiətdə itən insanların heç bir şey yemədən yaşamaq uğrunda uzun müddət mübarizə apardıqları hamıya bəllidir.

Bir çox həkimlər sağlam insanların su tapa bildikləri müddətdə qida qəbul etmədən 8 həftəyə qədər dözə biləcəyini söyləyirlər. Bədən ehtiyacı olan enerjini yağ, karbohidrat və zülal şəklində toplayır. Orqanizmə qida qəbulu dayanan kimi ilk istifadə edilən enerji növü karbohidratdır. Daha sonra yağ və ən sonda zülaldan istifadə edilir.

Burada maddələr mübadiləsi də rol oynayır. Maddələr mübadiləsi qidanı enerjiyə çevirir. Əgər maddələr mübadiləsi yavaş gedərsə, qidalanmadan daha uzun müddət yaşaya bilərsiz.

Iqlim də böyük faktordur. Həddindən artıq isti və ya soyuq hava ac insana çox pis təsir göstərir. Qida olmayanda isti susuzluğu artırır. Soyuqda isə bədən istiliyini qorumaq üçün daha çox enerji yandırır. İlıq iqlimə malik bir yerdə yaşayırsınızsa, qidasız sağ qalmaq şansınız daha çoxdur.

Qidalanmadan keçən bir neçə gündən sonra orqanizmdə nələr baş verir?

Zəiflik, xroniki ishal, qarışıq əhval, qərar vermə çətinliyi, əsəbilik, immunitetin zəifləməsi, nizamsız ürək döyüntüsü, sıxılma və s.

Susuz həyat

Susuz yaşamaq yeməksiz yaşamaqdan fərqlidir. Susuzluq 1 saat içində özünü göstərir. İsti avtomobildə bağlı qalan bir körpə ya da istidə su içmədən həddindən artıq hərəkətdə olan bir insan bir neçə saat içində həyatını itirə bilər.

İnsan övladının yaşamaq üçün suya ehtiyacı var. Hər gün tər, sidik, nəcis ifraz edərək və hətta nəfəs alıb-verərək su itiririk. Orqanlarımızın nizamlı işləməsi üçün itirilən bu suyun geri qaytarılması lazımdır. Həddindən artıq istidə yetkin insan yalnız tər ilə 1,5 litr su itirə bilər. Yüksək temperaturda bədənin hərarəti də yüksəlir ki, bu da riskdir və isti sizi vura bilər. Su içmək bədənin daxili temperaturunu aşağı salır.

Yüngül susuzluq vəziyyətində insanda tüpürcək itkisi, sidik sıxlığında və çıxışında azalma baş verir, sidikdə tünd rəng və güclü qoxu əmələ gəlir. Orta dərəcəli susuzluq vəziyyətində ağız quruluğu, göz quruluğu və çökmüş gözlər, sürətli ürək döyüntüsü, həddindən artıq susuzluqda isə qusma və ishal, keylik və əsəbilik müşahidə olunur. Susuzluğun son mərhələsi isə şokdur. Bu vəziyyətdə dəri göy rəngə çalır və soyuyur. Soyuma qan təzyiqinin həddindən artıq düşməsi ilə bağlıdır.

Bəs susuz neçə gün yaşamaq olar? Sağlam insan susuz ən yaxşı halda təxminən 3-5 gün sağ qala bilər.

Qələm, yoxsa klavatura: hansı ilə yazmaq daha yaxşıdır?

Klaviaturalar ictimai həyatda daha geniş yayıldığına görə, hamı SMS və elektron məktub yazır və nəticə etibarilə, qələmdən az istifadə edilir. Son illər aparılan araşdırmalar zamanı məlum olub ki, qələmlə yazı yazmaq zehni inkişaf və yaradıcılıq baxımından daha əhəmiyyətlidir. Klaviatura asılılığı xüsusilə uşaqlar üçün daha təhlükəlidir.

Amerikalı psixoloqun 2, 4 və 6-cı sinif şagirdləri arasında apardığı testlər göstərib ki, klavituarada sürətlə yazanlara nisbətən qələmdən istifadə edən şagirdlər düşüncələrini daha aydın şəkildə ifadə edirlər. Mütəxəssislər bildirirlər ki, bu, yazı yazarkən barmaq hərəkətlərinin beynin düşünmə, dil və qısa dövr yaddaş hissələrini fəallaşdırması ilə bağlıdır.

Hətta araşdırma zamanı o da məlum olub ki, Yaponiya və Çində qələm istifadəsinin azalması səbəbi ilə bu ölkələr ciddi təhsil problemi ilə üzləşiblər. Özlərinə xas əlifbaları olan bu iki ölkədə uşaqlar hərfləri xatırlamaqda böyük çətinlik çəkirlər. İbtidai siniflərdə əlifbanın şəklini əzbərləyən uşaqlar sonrakı illərdə də klaviaturadan istifadə etdikləri üçün qələmlə yazı yaza bilmirlər. Elm insanların bu vəziyyətini "xarakter yaddaşı itkisi" şəklində xarakterizə edir.

Hazırladı: **A. Qurbanqızı**

ÇEVRƏ

Gəlin bir anlığa özümüzə kənardan baxaq. Həyatın, gündüzəranın içində o qədər adiləşmişik ki, yaranışın müqəddəsliyini unutmuşuq. Qoy olsun! Lakin bir şeyi unutmağa mənəvi haqqımız çatmır: mən, sən, o - hamımız ali varlığıq.

Biz - ali varlıq dünyəvi zövqdən və bəşərin ali duyğusu olan sevgidən xəlq edilmişik.

Böyük sevgidən xəlq olunan ali varlıq Yer üzündə hansı funksiya ilə qərar tutub?

Fikirdən arzu yaranır. Arzuya görə niyyət doğulur. Niyyət əqidə yaradır. Əqidə əməllə nəticələnir. Əməl yekundur. Yekundan səmərə doğur. Səmərə ruzi yetirir. Ruzi arzuya çatdırır. Arzu fikrin məntiqi sonluğudur. Deməli, ağlın dövriyyəsi tamamlanır.

Tamlığa çatmısansa, səni ona çatdırana şükür etməlisən.

Şükür - kamillik deməkdir. Kamillik - xoşbəxtliyin zirvəsidir. Xoşbəxtlik - inamı gücləndirir. İnam - iman işığına gedən yoldur. İman - yaradana bağlılıqdır. Yaradana sarılmaq - həyat deməkdir. Həyat - ali nəfəsdən, ruhdan başlayır. Ruh - niyyətini diktə edir və bu tamlıq müdriklikdən doğur.

Vəssalam, çevrə qapandı.

R.Cavadzadə
tarix fakültəsinin I kurs tələbəsi

ETİBARSIZDIR

Hüquq fakültəsinin II kurs tələbəsi İsmayılov Bədrəddin Pəhlivan oğlunun adına verilmiş tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Filologiya fakültəsinin IV kurs tələbəsi Hidayətova Xumar Rəhim qızının adına verilmiş tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Tətbiqi-riyaziyyat fakültəsinin II kurs tələbəsi Hüseynov Nürəddin Fəxrəddin oğlunun adına verilmiş tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Kitabxanaçılıq və informasiya fakültəsinin II kurs tələbəsi Qulusoy Səlcuq Elçin oğlunun adına verilmiş tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Kitabxanaçılıq və informasiya fakültəsinin III kurs tələbəsi Ağayev Bəybala Qabil oğlunun adına verilmiş tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Kimya fakültəsinin III kurs tələbəsi Qarazadə İsmayıl Məcid oğlunun adına verilmiş tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Kitabxanaçılıq və informasiya fakültəsinin III kurs tələbəsi Səfərov Cöhəd Kamil oğlunun adına verilmiş tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Filologiya fakültəsinin II kurs tələbəsi Mehdixanov Elçin Axund oğlunun adına verilmiş tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Filologiya fakültəsinin II kurs tələbəsi Cümşüd Vahidoğlunun adına verilmiş tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Sosial elmlər və psixologiya fakültəsinin II kurs tələbəsi Hüseynli Tamerlan Nəsrəddin oğlunun adına verilmiş tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Beynəlxalq hüquq və beynəlxalq münasibətlər fakültəsinin IV kurs tələbəsi Baxışlı Orxan Bəkir oğlunun adına verilmiş tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Kitabxanaçılıq və informasiya fakültəsinin III kurs tələbəsi Cəfərov Cavid Nəsir oğlunun adına verilmiş tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Tarix fakültəsinin IV kurs tələbəsi Muradova Sevil Əli qızının adına verilmiş tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Fizika fakültəsinin II kurs tələbəsi Rüstəmov Rövşən Güloğlan oğlunun adına verilmiş tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Ömrü uzadan 7 qida

Alimlərin araşdırmalarına görə, insanın hər hansı bir xəstəliyə yoluxması onun qidalanmasından asılıdır. Bunu nəzərə alaraq, ömrü uzadan, dişlərə fayda verən qidalar barədə məlumatları təqdim edirik.

Badam. Yağlarla zəngin olan badam qandakı xolestrol nisbətini aşağı salır, həmçinin damar tutmalarının qarşısını alaraq, qan dövranını tənzimləyir, ürəyi qoruyur.

Qəhvə. Gün ərzində 2 fincan qəhvə içmək xüsusilə orta yaşlı insanlarda yaranan Parkinson və şəkər xəstəliklərinə qarşı bədəni qoruyur. Qəhvədə olan kofein maddəsi şəkər xəstəliyinə yoluxma riskini 35% azaldır. Qəhvə həmçinin ağrıkəsici funksiyanı da yerinə yetirir. Ancaq qəhvəni südlə için. Beləcə, kofeinin sümükləri zəiflətməsini əngəlləmiş olarsınız.

Darçın. Bir çay qaşığı dolu darçını suya salaraq içmək məsləhətdir. Darçın qanda şəkəri qaydaya salır, sinir sistemini sakitləşdirir.

Kartof ən yararlı 100 qida arasında 17-ci sırada durur. Orqanizmi xərçəng və infarkt xəstəliklərindən qoruyur. Kartofu qızartmaq əvəzinə yağsız halda əzilmiş və ya buxarda bişirilmiş şəkildə yemək daha məsləhətlidir.

Tərəvəz şorbası sodium baxımından zəngindir. Sodium sinir sistemi və əzələlərin davamlı olaraq işləməsinə şərait yaradır.

Zeytun yağı xərçəngin qarşısını alır. 1 xörək qaşığı zeytun yağında 120 kalori var. Bu səbəbdən gündə 6 qaşıqdan artıq zeytun yağı yemək məsləhət görülmür.

Çay qara və ya yaşıl olmasından asılı olmayaraq, xərçəng riskinin azalmasında təsirlidir. Çay qadınlarda uşaqlıq xərçənginə yoluxma riksini 50% azaldır.

DİŞLƏRƏ FAYDALI QİDALAR

Pendir dişlərin çürüməsinin qarşısını alır. Şəkərli qida qəbul etdikdən dərhal sonra bir parça pendir yeyilməlidir.

Yaşıl çayın tərkibində olan qatasin maddəsi bakteriyaları məhv edir. Bu maddə eyni zamanda ağızdan gələn pis qoxunu aradan qaldırır.

Qatıq kalsium- periondontalla zəngin olduğundan diş kökləri iltihabını sağaldır, zəif dişlərin sağalmasına da yardımçı olur.

Alma dişlərin və diş ətinin möhkəmlənməsini təmin edir.

Balıq yodla zəngin olduğundan immun sistemini qüvvətləndirir. Zəngin fosfor isə diş toxumalarını təmin edən vacib maddələrdəndir.



Çiyələk diş və diş ətinə xeyirlidir. Diş daşlarından təbii yolla azad olmaq üçün çiyələk mütləqdir. Tərkibi müxtəlif turşularla zəngin olan çiyələk diş daşlarını həm əridir, həm də onların artmasına mane olur.

Kərəviz sərt yeməklərin dişə vurduğu zərbənin qarşısına sipər çəkir.

Ruqiyyə Cavadzadə
tarix fakültəsinin
I kurs tələbəsi

Sevdiklərimiz

Hər bir insan uşaqlıqdan böyüməyə can atır, ancaq böyüdükdən sonra yenidən körpə olmaq istəyir. Çünki insan yaşa dolduqca problemlər də çoxalır. Və hər bir insan qarşılaşdığı problemləri müstəqil həll etmək məcburiyyətində qalır. Həyatda hər kəsin, hətta zəngin insanlar belə çətinliklərlə qarşılaşır və bəzən aciz vəziyyətdə qalır. Bu o deməkdir ki, problemlər pulla yox, ağılla həll edilir.

Həyatımız şahmat oyununa bənzəyir, ağıllı addım atdıqda səni yüksəkliyə qaldırır, əks halda isə səni yüksəklikdən endirir. Bəzən hansısa yüksəkliyə nail olmaq, dost qazanmaq üçün günlər, aylar, illər həsr olunur, lakin bir səhv hərəkətlə hər şeyi, hətta Ən çox sevdiyin insanı belə asanlıqla itirə bilərik.

Sevdiyimiz insanlar... Onlar olmasa həyatın mənası olmaz.

Həyat qısadır, odur ki, nə qədər gec deyil, sevdiklərimiz, yaxınlarımız, valideyinlərimiz yanımızda varkən qədrini bilək və hər şeydən əvvəl onları düşünək, onlar bizi hər zaman düşündükləri kimi kimi!

Hər günümüzün, sevdiklərimizin və bizi sevənlərin qədrini bilək!!!

Röya Talıbova,
filologiya fakültəsi
III kurs tələbəsi

Özünü fəth etməyi bacar!

Bakı Universiteti

№ 07 (1402) 25 oktyabr 2010-cu il

SON SƏHİFƏ

NƏ DƏRƏCƏDƏ MÜŞAHİDƏÇİ İNSANSINIZ?

Testlər bütün dünyada məşhurdur. İngilis dilindən tərcümədə "test" sözü "sınaq" deməkdir. İnsanlar lap qədimdən test üsullarından istifadə ediblər. Bir neçə nümunəyə nəzər salaq. Məsələn, Çin və Hindistanda şübhəli şəxsi düyü ununu çeynəməyə, sonra isə onu tüpürməyə vadar edərdilər. Əgər o, asanlıqla tüpürürsə, deməli, heç bir günah işləmədiyi üçün həyəcanlanmayıb və ağzı quru deyil. Ərəbistanda eyni məqsədlə qaynar dəmiri yalamaga məcbur edərdilər: əgər ağızda tüpürcək varsa, deməli, o şəxs günahsızdır.

Qəzetimizin bu sayından etibarən Gender və tətbiqi psixologiya kafedrasının müəllimi Vəfa Nağıyevanın təqdimatında oxuculara bir sıra maraqlı testlər təqdim ediləcək.

İndi isə nə dərəcədə müşahidəçi insan olduğunuzu bilmək istəyirsinizsə, aşağıdakı testdən keçin:

1. Hansısa təşkilata daxil olarkən:
A) Masa və oturacaqların yerləşməsinə fikir verirsiniz - 3 bal
B) Əşyaların dəqiq qoyuluşuna fikir verirsiniz - 10 bal
C) Divardan asılan şəkillərə baxırsınız - 5 bal

2. İnsanla görüşərkən:
A) Yalnız onun üzünə baxırsınız - 5 bal
B) Başdan ayağa qədər onu süzürsünüz - 10 bal
C) Üzdə müəyyən cizgilərə fikir verirsiniz - 3 bal

3. Gördüyünüz peyzacdan nə yadınızda qalır:
A) Rənglər - 10 bal
B) Səma - 5 bal
C) Baxdığınız zaman keçirdiyiniz hisslər - 3 bal

4. Səhər yuxadan qalxarkən:
A) Bu gün nə edəcəyinizi dərhal yadınıza salırsınız - 10 bal
B) Yuxunuzu xatırlayırsınız - 3 bal
C) Ötən gün baş verənləri analiz edirsiniz - 5 bal

5. İctimai nəqliyyatdan istifadə edərkən:
A) Heç kəsə baxmadan irəli keçirsiniz - 3 bal
B) Ətrafınızda olan insanlara nəzər yetirirsiniz - 5 bal
C) Sizə yaxın dayanan insanla ünsiyyətə girirsiniz - 10 bal

6. Küçədə:
A) Nəqliyyatı müşahidə edirsiniz - 5 bal
B) Evlərin fasadına nəzər yetirirsiniz - 3 bal
C) Piyadalara tamaşa edirsiniz - 10 bal

7. Mağazada:
A) Yalnız sizə lazım olan əşya ilə maraqlanırsınız - 3 bal
B) Lazım olmayan əşyalara da baxırsınız - 5 bal
C) Hər əşyanı diqqətlə nəzərdən keçirirsiniz - 10 bal

8. Evdə itirdiyiniz əşyanı axtararkən:
A) O əşyanı sonuncu dəfə qoyduğunuz yeri xatırlamağa çalışır və həmin yeri axtarırsınız - 10 bal
B) Hər yeri axtarırsınız - 5 bal
C) Başqalarından kömək umursunuz - 3 bal

9. Köhnə dostlarınızın, yaxınlarınızın şəkillərinə baxarkən:
A) Həyəcanlanırsınız - 5 bal
B) Gülməyiniz gəlir - 3 bal
C) Şəkildəki insanları tanımağa çalışırsınız - 10 bal

10. Qaydalarını bilmədiyiniz oyunu oynamaq təklif ediləndə:
A) Oyunun qaydalarını öyrənməyə cəhd edirsiniz - 5 bal
B) Bir müddət sonra bu ideyadan imtina edirsiniz - 5 bal
C) Dərhal imtina edirsiniz - 3 bal

11. Kimisə gözləyərkən:
A) Yanınızda dayanan insanlara diqqətlə baxırsınız - 10 bal
B) Qəzet oxuyursunuz - 5 bal
C) Xəyallara dalırsınız - 3 bal

12. Ulduzlu gecədə:
A) Ulduzlara tamaşa edirsiniz - 10 bal
B) Sadəcə səmaya baxırsınız - 5 bal
C) Ümumiyyətlə, səmaya baxmırsınız - 3 bal

13. Kitab oxuyarkən:
A) Oxuduğunuz sonuncu cümləni qələmlə qeyd edirsiniz - 10 bal
B) Həmin səhifəni qatlayırsınız - 5 bal
C) Yaddaşınıza etibar edirsiniz - 3 bal

14. Qonşularınız barədə nəyi xatırlayırsınız?
A) Adını, soyadını - 15 bal
B) Xarici görünüşünü - 3 bal
C) Heç nəyi xatırlamırsınız - 5 bal

100-150
Sözsüz ki, siz həddən artıq müşahidəçi insansınız. Həmçinin siz həm özünüzü, həm də hərəkətlərinizi təhlil etməyə qadirsiniz

75-99
Sizdə müşahidəçilik kifayət qədər inkişaf edib, lakin hərdən tərəddüd edirsiniz.

45-74
Başqalarının davranışı və xarici görünüşü arxasında nə gizləndiyi sizi o qədər də maraqlandırmır. Lakin buna baxmayaraq, sizdə o qədər də ciddi psixoloci problem yoxdur.

45 baldan aşağı
İnsanın gizli, sirli fikirləri sizi qətiyyən maraqlandırmır. Siz həddən artıq məşğulsunuz, hətta heç vaxt öz hərəkətlərinizi təhlil etmirsiniz. Sizi eqoist adlandirmaq olar.

S.O.S.

Həyatda çətinliklə üzləşmisiniz? Sizi maraqlandıran suallara cavab tapa bilmirsiniz?

Kiminləsə bölüşmək istədiyiniz, ancaq çəkindiyiniz mövzularla bağlı narahatlığınıza səbəb olan suallara cavab tapıldı! Siz tək deyilsiniz! Qəzetimiz vasitəsilə siz görkəmli psixoloqlara, peşəkar mütəxəssislərə anonim olaraq müraciət edə bilərsiniz.

Məktublarınızı BU_press1929@hotmail.com ünvanına yollayaraq və ya birbaşa redaksiyaya təqdim edərək qəzetin növbəti sayında öz suallarınıza cavab tapın.

ÖZ ARAMIZDA

500 milyon insan, 570 milyard səhifə baxımı, 700 milyon dollar illik gəlir...

2004-cü ildə Harvard Universitetinin tələbələrini bir şəbəkədə birləşdirmək məqsədilə Mark Tsukerberq tərəfindən yaradılan FACEBOOK 2006-cı ildə artıq beynəlxalq səviyyəyə çatdırıldı. Xüsusən də tələbələr arasında bu cür kommunikasiya və informasiya vasitəsi çox tez zamanda populyarlaşdı.

Artıq bir çoxlarımızın həyatının ayrılmaz hissəsinə çevrilən FACEBOOK-un faydaları və zərərlərinə gəldikdə isə fikirlər ayrılır: bəziləri sosial şəbəkəni qloballaşmanın inkişafı kimi görür, bəziləri isə burada vaxtın səmərəsiz keçdiyini düşünürlər.

Bəs siz nə düşünürsünüz? Fikirlərinizi BU_press129@hotmail.com ünvanına göndərməklə "Bakı Universiteti" qəzetinin oxucuları ilə bölüşün.

SÖZÜNƏ QÜVVƏT...

Gənc şair və yazıçı dostlarımızı öz məharətlərini qəzet səhifələrində nümayiş etdirməyə dəvət edirik.

Öz istedadınıza, qabiliyyətinizə inanır və peşəkar tənqiddən çəkinmirsinizsə, şeirlərinizi, hekayələrinizi BU_press129@hotmail.com ünvanına göndərə və ya redaksiyaya təqdim edə bilərsiniz. Növbəti saylarımızı izləyin və görkəmli alim-filoloqların, şairlərin yazılarınızla bağlı tövsiyə və faydalı məsləhətlərdən bəhrələnin...

MƏNTİQİNİ YOXLA

Təqdim olunmuş məntiqi sualların düzgün cavabını izahı ilə BU_press1929@hotmail.com ünvanına göndərə bilərsiniz.
Cavab qəzetin növbəti sayında dərc ediləcək.

Üç müdrik ağacın altında yatarkan bir nadinc uşaq onların başını qırmızı rəngə boyadı. Yuxudan ayılanda müdriklər bir - birinə baxıb gülürdülər. Birdən onlardan biri susdu. Niyə?

* * *

30 mərtəbəli binanın 25-ci mərtəbəsində yaşayanlardan biri hər səhər işə gedərkən liftdən istifadə edir. İşdən evə qayıdan zaman isə 24-cü düyməni basıb bir mərtəbəni isə piyada qalxır. Niyə?

Baş redaktor: Anzulə ƏMİROVA

Redaksiya heyəti: Solmaz Babaşova, Aynur Qurbanqızı, Tamella Müslümova, Salam Muxtarov, Kəramət Böyükçöl

Redaksiyanın ünvanı: Bakı, akad. Zahid Xəlilov küç. 23, BDU-nun əsas binası, II mərtəbə
Tel.: 439-03-64, 439-04-78
e-mail: *bakiuniversiteti@box.az*

Sifariş: 147
Tiraj: 2000

VÖEN: 990000213
Lisenziya №-022708
Qəzet "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunur.
Əlyazmalar geri qaytarılmır